**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏLİYEVA LƏMAN ETİBAR** qızı

# TRUMEN KAPOTENİN "BAŞQA SƏSLƏR, BAŞQA OTAQLAR" ROMANINDA FANTASTİK VƏ QROTESK ELEMENTLƏR

**Filologiya-Ədəbiyyatşünaslıq ( İngilis ədəbiyyatı)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

Elmi rəhbər: __________

Ü.Ç. Əliyeva

*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**BAKI – 2022**

**MÜNDƏRİCAT**

**GİRİŞ**………………………………………………………………………..3

**I FƏSİL. TRUMEN KAPOTENİN YARADICILIĞININ ÖZÜNƏMƏXSUSLUĞU …...............................................................................…......8**

1.1. Trumen Kapotenin yaradıcılığında janr müxətlifliyi …………………………..8

1.2. Yazıçın yaradıclığında real faktlar və real insanlar ……………………………20

**II FƏSİL: "BAŞQA SƏSLƏR, BAŞQA OTAQLAR" ROMANININ T.KAPOTENİN YARADICILIĞINDA YERİ ……………………………………..35**

2.1. "Başqa səslər, başqa otaqlar" əsərində müəllif individuallığının spesifikası…………………………………………………………………….**...35**

2.2. "*Başqa səslər, Başqa otaqlar*" əsərindəki personajların müxtəlifliyi……………………………………………………………………..**50**

**NƏTİCƏ……………………………………………………………………62**

**ƏDƏBİYYAT SİYAHISI………………………………………………….66**

# GİRİŞ

Dünya ölkələrində baş verən hadisələri, hətta qədim dövrdən müasir dövrə qədər olan tarixi, ictimai və siyasi mövzuların müasir zamanda hər kəsə kifayət dərəcədə məlum olmasının səbəblərindən biri həmin dövrlər yaşayıb yaratmış yazıçıların qələmə aldığı əsərlərdə həyatı, cəmiyyəti, insanları və onların düşüncələrini olduğu şəkildə təsvir etmələridir. Amerika ədəbiyatı Dünya ədəbiyyatının əsas bir hissəsini təşkil edir. Amerika mədəniyyəti illər keçdikcə bir çox çətinliklərlə üzləşmiş və bəzi daxili böhranların olmasına səbəb olmuşdur və nəticədə bu çöküşlər insanlardan və o zamanın əsərlərindən yan keçməmişdir. Amerika ədəbiyyatının və mədəniyyətinin illər keçdikcə dəyişməsində və yenilənməsində yazıçıların böyük töhvələri olmuşdur. Modernizm dövrünün bitməsi ilə Amerikada Postmodernist dövr başladı və İkinci Dünya müharibəsinin bitməsi ilə postmodernist ədəbiyyat çiçəklənmə dövrünə başlayaraq ətrafında bir çox yazıçıları birləşdirmişdir. İnsanların düşüncələrini, kimliyini dərindən araşdıraraq əsərlərində qeyd edən yazıçı Trumen Kapote XX əsr Amerika ədəbiyyatının bir çox cəhətdən zənginləşməsində böyük rol oynamışdır.

**Mövzunun aktuallığı.** XX əsrin tanınmış Amerikan yazıçısı Trumen Kapotenin yaradıcılığı ilk öncə Amerika ədəbiyyatında daha sonra dünya ədəbiyyatında şöhrətinin artması və məşhurlaşaraq elit insanlar arasına ayaq basması kimi mövzulara diqqət yetirilərək araşdırılmışdır. Yaşadığı dövrün çətinliklərini və cəmiyyətin düşüncə tərzini və insanların həll edə bilmədikləri problemlər nəticəsində bir-biri ilə toqquşmasını bütün incəlikləri ilə birgə təsvir etmişdir. Müəllifi olduğu əsərlərində fərdin şəxsi, daxili psixoloji aləminin araşdıraraq mənlik və "kimlik" axtarışında olan insanlarla cəmiyyətin fərqli düşüncə tərzinin toqquşmasından yaranan bir-birinə zidd fikir və davranışların insanlara necə psixoloji təsir etməsini, uşaqlıqdan yaranın travmaların gələcəkdə insanın həyatında necə böyük şəkildə təsir göstərəcəyi kimi mövzuları işıqlandıraraq, nümunələri ilə birgə peşəkar şəkildə təsvir etmişdir. İnsanın daxili düşüncələrinin dərinliklərinə enərək təhtəlşüur nəticəsində və keçmişdə yaşanılmış sərt davranışların və travmaların nəticəsində şəxsin indiki davranışlarının psixoloji səbəbdən izahını mükəmməl şəkildə təsvir etmişdir. Şəxsi və

cinsi kimlik axtarışında olan fərdlərin sosial amillər nəticəsində və cəmiyyət tərəfindən normaldan fərqli olaraq qəbul edildikləri və pislənildikləri üçün yanlız və hər kəsdən özünü uzaqlaşdırma, depressiya, qaranlıq düşüncələrə qapılmalarını qələmə alaraq insanların yaşadığı çətin anları və psixoloji cəhətdən çöküş yaşamalarını özü yaşamışcasına çox dəqiq incəliklə təsvir edərək işıqlandırmış, lakin sonda isə daima bir ümid olduğunu, həyatın daha sona çatmadığını və yaşamaq üçün daha çox səbəblərin olduğunu qeyd edərək, oxucuları ümidlərini heç zaman itirməməkləri üçün həvəsləndirmişdir.

İrqi ayrıseçkilik və zorakılıq məsələsini diqqətdən kənar saxlamayan yazıçı əsərlərində irqi ayrı seçkilik problemlərinə toxunaraq bu mövzunu daim göz önündə tutmuş, çətinlik yaşayan insanların səsi olmağa çalışmışdır. İrqi ayrı-seçkilik nəticəsində qaradərili şəxslərin digər şəxslər tərəfindən şiddət görmələrini, ən aşağı səviyyə kimi baxılmalarını və bütün bu səbəblərdən keçirdikləri ağır həyat şəraitini nümayiş etdirmişdir.

Ədəbi nümunələri analiz etməzdən əvvəl yazıçıların şəxsi həyatı ilə yaxından tanış olduğumuz zaman əsərlərini təhlil edərkən yazıçıların şəxsi həyatlarından bəzi nüansları əsərlərində qeyd etmələrini nəzərə alaraq, Trumen Kapotenin də həmçinin yaşadığı həyat tərzi, keçirdiyi daxili böhranları, yaşadığı tərk edilmişlik, atasızlığın yaratdığı çətinliklər və yanlızlıq hisslərini paralel şəkildə əsərlərində nümayiş etdirdiyini nəzərə alaraq, yazıçının hər bir fərdi və onun keçirdiyi sosial, psixoloji çətinlikləri bir-bir təhlilini verərək diqqət mərkəzində saxlaması mövzunun əsas aktual hissəsidir.

**Tətqiqatın obyekti və predmenti.** Magistr işinin obyekti Trumen Kapotenin özünəməxsus yaradıcılığı, bütün əsərlərinin, real həyat və real insanların olduğu əsəri, xüsusilə "*Başqa Səslər, Başqa Otaqlar*" (" *Other Voices, Other Rooms")* əsərinin dərindən təhlili nəzərdə tutulur. Trumen Kapotenin yaradıcılığındaki personajların keçirdiyi mənəvi psixoloji halları tədqiq edərək, yazıçının əsərlərinin müxtəlif çalarlarda istifadə edilməsi təqiqat işinin predmentini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Trumen Kapote yaradıcılığında hər bir personajın fərdi hisslərinin izahını verib, cəmiyyət arasında qəbul edilməyərək,

normal qəbul olunmayan və kimlik axtarışında olması tədqiqat işinin məqsədini təşkil edir. Bütün əsərləri  tədqiq edərkən qarşıya qoyulan bəzi vəzifələr vardır:

- Trumen Kapotenin bir çox yazıçılardan fərqlənən, özünəməxsus yaradıcılıq xüsusiyyətlərinin təhlil etmək;
- Trumen Kapotenin real həyat hadisəsindən təsirlənərək yazdığı “Qırmızı Qan” əsərinin dərin psixoloji xüsusiyyətlərini üzə çıxarmaq;
- “Başqa səslər, başqa otaqlar” əsərində real lakin qrotesk obrazları təhlil etmək;
- Cəmiyyət tərəfindən qəbul edilməyən və irqi ayrıseçkilik hökm sürdüyü bir dövrdə həyatları çətinləşən personajların psixoloji vəziyyətlərini araşdırmaq;
- Kimlik axtarışında olan personajların daxili aləminin və keçirdiyi hisslərin yazıçının hiss edərək təsvir etməsinin əsas səbəblərini üzə çıxarmaq;
- XX əsrdə baş verən hadisələrin, cəmiyyətin və fərdin üzləşdiyi çətinliklərin məharətlə işləyərək yazıçının aspektindən təsvir etməsi.

**Tədiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti dedikdə tətqiqat işininin yazılmış nəzəri hissəsinə elmi cəhətdən nəzər yetirmək, yazıçının özünəməxsus yaradıcılığındakı əsərlərin müxtəlif dilli materiallardan: kitablardan, digər məqalə və dissertasiya nümunələrindən və internet resurslarından istifadə etməklə  dərin tədqiqi nəzərdə tutulur. Tədqiqat işinin gələcəkdə tətqiqat aparacaq olan tələbə və magistrlar üçün əlverişli mənbə kimi istifadə olunması isə praktiki əhəmiyyət hesab edilir.

**Müdafiəyə qoyulan müddəalar.**

- Müəllifin XX əsrin ortalarından dövrün 70-ci illərinə qədər qələmə aldığı sənət əsərlərini təhlil etməklə, onların janr müxtəlifliyini göz önünə çıxartmaq;
- Trumen Kapotenin yaradıcılığında müəllifin mövqeyini açıqlayan real insanlarla, həqiqi faktların paralel şəkildə təhlilə cəlb edilməsi;
- Elmi işin əsas mövzusunu təşkil edən “*Başqa Səslər, Başqa Otaqlar*” romanında yazıçının fərdi spesifikasına nəzər yetirmək;
- Müəllifin yaşadığı əsrin önəmli aspektlərinə toxunmaq, xüsusən qaradərililərlə bağlı aparılan ayrı-seçkilik və eynicinsli fərdlərin bir-birinə olan maraqlarına

cəmiyyətin təcridi yanaşması, ailə sevgisi axtarışında olan obrazların timsalında bizlərə təqdim olunması.

**Dissertasiyə işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi bundan ibarətdir ki, XX əsrin ortalarından yaradıcılığı ilə indiyədək məşhur olan Trumen Kapotenin yaradıcılığı dərindən araşdıralaraq və əsərlərinin təhlili ilə birgə bütün incəlikləri ilə ilk dəfə planlı və genişhəcmli formada təqiqata cəlb olunmuşdur. Müəllifin əsərlərini və əsərlərində olan personajların daxili, mənəvi və psixoloji aləmini açmaqla keçirdikləri daxili böhranların və indiki vəziyyətdə olmalarının səbəbini araşdırıb, yazıçın özünün də həmçinin həyat təcrübələrindən və uşaqlıq illərindəki hadisələrini personajların qismində paralel şəkildə aparması araşdırılmış və qeyd edilmişdir. Şəxsiyətin daxili böhranı, özgələşmə, özünü insanlardan təcrid etmə, eyni cinsli şəxslərin sevgisi, cəmiyyət tərəfindən təcrid olunma, kimlik axtarışı, uşaqlıqdan gələn travmalar, ailə axtarışı bu kimi davranışların psixoanaltik cəhətdən izahlarını təqdim etməsi nəzəri cəhətdən əsaslandırılmışıdır.

**Təqiqatın aprobasiyası.** Təqiqat işi Azərbaycan Dillər Universistetinin xarici ölkələr ədəbiyyatının kafedrasında aprobasiyadan keçmiş və kafedranın iclasında müzakirəyə qaldırılmışdır. Dissertasiya işi ilə mövzusu eyniləşən "Amerikan yazıçısı Trumen Kapotenin yaradıcılıq xüsusiyyətləri" adlı məqalə çap olunmuşdur.

**Dissertasiya işinin strukturu və məzmunu.** Dissertasiya işi iki fəsil və hər bir fəsil iki yarım fəsillərə bölünməklə yazılmışdır. Tədqiqat işi mündəricat, giriş, birinci fəsil, ikinci fəsil, nəticə və ədəbiyyat mənbələri göstərilməklə təqdim edilmişdir. Tədqiqat işinin ilk fəsilində Trumen Kapotenin bütün əsərlərinin dərindən təhlilini və real hadisə və insanlarla bağlı olan əsərində hadisələrin baş vermə səbəblərinin təhtəhşurdan istifadə edərək aydınlaşdırılmasını verməklə müəllifin janr müxtəlifliyini göz önünə çıxarılmışdır. Tədqiqat işinin ikinci fəsilində isə "*Başqa Səslər, Başqa Otaqlar*" əsərinin dərindən təhlili ilə yanaşı o dövr cəmiyyətin düşüncə tərzini və əsas qəhrəmanın timsalında başqalarından fərqli olduğu düşüncəsilə üzləşdikləri çətinlikləri olduğu kimi təsvir edən Trumen Kapotenin özünün də həmçinin bütün hadisələrə olan düşüncələrini də personajların dilindən verməklə daha da mənalı olan əsərin dərindən təhlili verilmişdir. Tətqiqat işinin nəticə

hissəsində işin ümumi məzmun və strukturu ümumiləşdirilərək yazıçının əsərlərində istifadə etdiyi dövrün problemlərini mətnaltı şəkildə cəmiyyətə çatdırması yükunlaşdırılaraq öz əksini tapmışdır.

# I FƏSİL: TRUMEN KAPOTENİN YARADICILIĞININ ÖZÜNƏMƏXSUSLUĞU

## 1.1. Trumen Kapotenin yaradıcılığında janr müxtəlifliyi

XX əsrin əvvəllərində Amerika ədəbiyyatı Modernizm ədəbi cərəyanının inkişafı ilə Amerika ədəbiyyatında bir çox dəyişiklər baş verərək, inkişafa doğru irəliləmişdir. Modernizm cərəyanının 1930-cu illərin sonunda sona çatması ilə Postmodenizm onu əvəz etmişdir. Postmodernizm 1960-cı illərdə İkinci Dünya Müharibəsi, Soyuq Müharibə və başqa bir sıra mübahisə və müharibələrin bitməsindən ilhamlanaraq yarananmış və Kurt Vonnegut, Con Barth və sairə kimi yazıçıların sayəsində ortaya çıxaraq tanınmışdır. Hər iki Modernist və Postmodernist ədəbiyyat 19-cu əsrin gerçəkliyindən uzaqlaşmağı təsvir edərək, personajın daxili aləmində subyektivlik və insanın xarici aləmin reallığından ayrılıb təhtəlşüuruna enərək gerçəkliyi və baş verən bütün hadisələrin səbəbini araşdırır. Postmodenist ədəbiyyat müharibədən sonra Amerikanların gördükləri gerçəkliklərdən sonra ümid axtarışında olmaqlarına köməklik göstərmiş, əsas mövzusu isə kimlik axtarışı, irqçilik, insanlığın içində olan yaxşılıq, qadın haqqları olmuşdur. Bu cərəyanın nümayəndələri əsərlərində əsasən intertekstuallıq, ironiya, paranoiya, pastiş, qara yumor, magik realizm və digər xüsusiyyətlərdən istifadə edərək, postmodernist ədəbiyyatın digər cərəyanlardan fərqli xüsusiyyətlərini özündə birləşdirir. Postmodern yazıçılar gündəlik həyatın gerçəklərini, yeni texnologiyalardan yazaraq, keçmiş və gələcəyə diqqətlərini vermişdirlər və postmodernist cərəyanın inkişafı dövründə əsərləri və düşüncə tərzinin digər yazıçılardan fərqli olması ilə tanınan Trumen Kapotenin də həmçinin bu cərəyanın təsiri ilə əsərlərində postmodernist mövzulara toxunmuşdur.

XX əsr Amerika və Dünya ədəbiyyatının ən tanınmış və dünya şöhrətli yazıçılarından biri olan Trumen Kapote 1924-cü ildə Yeni Orleanda doğulmuşdur. Valideynləri- Arçe və Lilli Persons ona qarşı çox laqeyd olduğundan uşaqlıq illəri səfalət içərisində keçmişdir. Monrovildə olarkən T.Kapote

bir neçə insanla dostluq edirdi və onlardan biri də gələcəkdə məşhur “Bülbülü öldürmək” romanın müəllifi Harper Li olmuşdur. Sonradan öz əsərlərində bir-biri haqqında bəhs etmişdirlər. T.Kapote Alabamada olarkən özəl məktəbə getmiş lakin sonradan anası və ögey atası ilə birlikdə New Yorkda yaşamış və orta məktəbi orada tamamlamış, buna baxmayaraq ali məktəbi Franklin məktəbində bitirmişdir. . Anası və ögey atası ilə birlikdə yaşayan zamanlar o, ögey atasının himayəsinə keçmiş və Kapote soyadını qəbul etmişdir. Bacarıqlı və intellektual olmasına baxmayaraq akademik təhsildə uğur və yüksək nəticə qazana bilməmişdir. Yazıya olan sevgisi onu belə bir düşüncəyə gətirdiki, kollec ona heçnə öyrətmir və nəticədə kolleci tərk edərək dəyərli vaxtını yazıya həsr etmiş və Nyu Yorkda iki illik iş təklifi almışdır. Beləliklə daha da tanınmağa başlamış və müəllifi olduğu qısa hekayələr sayəsində ədəbiyyatçılar və yüksək təbəqəli insanların diqqətini cəlb etməyə başlamışdır.

Görkəmli yazıçı Trumen Kapote yaradıcılığı dövründə müxtəlif janrlardan istifadə edərək yaradıcılığını daha da zənginləşdirmiş və insanlara böyük töhvələr vermiş, həmin dövrün müxtəlif problemlərinə toxunaraq həm real həyat hadisələrindən həm də cəmiyyətin problemlərindən yazmışdır.

Amerikada o zamanlar sosial və ictimai problemlər çox geniş yayılmış və cəmiyyətin əsas problemlərindən birinə çevrilmiş, həmçinin, o dövrün yazıçılarının yaradıcılığında əsas mövzusunu həmin problemlər və onların törətdiyi fəsadlar təşkil etmişdir. Amerika imperializmə keçid etməklə ölkədəki daxili ziddiyətləri artırmış, fəhlə istismarı başlamış və demək olarki iqtisadi böhran yaşamışdır və bunun nəticəsi olaraq insanların üsyan qaldırmış hökümət ilə əhali bir-birinə qarışmışdır. Bütün bu tarixi prosseslər ədəbiyyatda öz təccəssümünü tapmışdır, lakin bir çox yazıçılar bu prosses və problemlərdən uzaq durmağı seçsə də, bəzii yazıçılar Trumen Kapote də daxil olmaqla əsərlərində Amerika cəmiyyətinin o zaman üzləşdiyi problemləri, real həyat hadisələrin, habelə, cinsi müxtəlifliklərdən, ağdərili olmayan insanlardan və sayirə yazıb göstərməyə çalışmış və dünyaya o dövrlərdə baş verən bütün hadisələri əsərlər sayəsində nümayiş etdirmiş və günümüzə qədər gəlib çatmışdırlar.

Trumen Kapote XX əsr Amerika ədəbiyyatının əsas yaradıcılarından biri olmaqla yanaşı  həm də Cənub romantiklərinin əsas nümayəndəsi olumuşdur. O dövrlər Amerika ədəbiyyatının inkişafında  Cənub Ştatlarının yazıçılarının böyük rolu olmuş və onlar sayəsində məşhur əsərlər yaradılıb dünyaya tanıdılmışdır. Məşhur yazar yaradıcılığına qısa hekayələr yazmaqla başlamış və yaradacılığına roman, pyeslər yazmaqla Amerika ədəbi irsinə böyük töhvələr vermişdir.

1942-ci ildə çap olunan "*Miriam*"  qısa hekayəsi 1946cı ildə O.Henri mükafatına layiq görülmüşdür. Amerika həyatının mərkəzində müharibənin əsas  yer tutduğu o dövrdə "*Miriam*" qısa hekayəsi İkinci Dünya Müharibəsinin kadrlarının şahidi olduqdan sonra dul qadın Millerin psixoloji cəhətdən pisləşməsini təsvir edir. Bu hekayə kiçik mənzildə öz balaca dünyasında yaşayan dul qadın Miller  və onun gördüyü Miriam adlı qızdan bəhs edir. Hekayədə Miller 61 yaşlı və özünə yaxşı baxmayan, saçları qısa və heç vaxt makyaj etməyən, heç bir dostu olmayan, yaxınlıqdakı mağazadan uzağa heç vaxt getməyən  sadə bir qadın təsvir olunur. Bir gün kinoteatra gedir lakin onu içəri buraxmırlar buna görə də orada gənc qız Miriamdan onun üçün bilet almasını xahiş edir və onlar birlikdə içəri daxil olur və sonradan ayrılırlar. Hekayə davam etdikcə Miriamı xanım Millerin evinə gəlib getdiyini görürük lakin bir gün Miriam həmin evdə yaşamağa qərar verir. Lakin xanım Miller bundan narazı olduğu üçün qonşularına çağırmaq üçün gedir və gəldikdə evdə heç kəsi görmürlər. Evdə tək qalandan sonra Miriam yenidən evdə görünür və ona anlaşılmaz sözlər deyir və hekayə burada bitir.  Hekayə müxtəlif formada analiz edilir. Truman Kapotun psixoloji motivlərdən istifadə etdiyi bu hekayədə Miriamın görünməsi və yenidən yox olması xanım Millerin ikili şəxsiyyəti kimi təsvir edilməsi anlamına gəlir. Bəziləri Miriam adının tərcüməsi "arzulanan uşaq" olması ilə bağlı bildirirdilər ki,  bu xanım Millerin həyata keçməyən arzusu ilə əlaqəlidir. Həmçinin tənqidçilər  hekayədə istifadə edilən rənglərin də bir mənaya gəldiyi ifadə edirdilər. Miriamın daim ağ rəngli geyimdə olması onu ölüm mələyi kimi təsvir olunduğunu bildirirdilər. Bu hekayədə həmçininin T.Kapotun təcrid olunma və müharibənin insanlara necə pis təsir etdiyini Miller personajının simasında təsvir etmişdir.

Gənc yazar Trumen Kapote New Yorker qazetində işləyərkən bəzi səbəblərdən işdən qovulur və bu hadisədən sonra yazıçı Alabamaya uşaqlıq illərini keçirdiyi yerə gedir, lakin bu məkana gəlmək yazıçı üçün yeni əsərlər, janrlar yazıb yaratmaq üçün böyük bir fürsət idi. Burada olarkən yarımçıq dayandırdığı və kənarda saxladığı əsəri "*Yay keçir" ("Summer Crossing")* xatırlayır və "*Başqa səslər, Başqa otaqlar" (Other Voices, Other Rooms")* yazmağa başlayır. Həmçinin sonradan "böyük sevgi" janrı adlandırdığı qısa hekayələr də yazmağa davam edir.

Kapote 1949-cu ildə böyük uğurlar qazanmışdır və həmin il "*İşıq Ağacı" ( A Tree of Light)* adlı qısa hekayələr toplusu və "*Başqa səslər, Başqa otaqlar" (Other Voices, Other Rooms)* adlı ilk romanını çap etmişdir. "*Başqa Səslər, Başqa Otaqlar"* romanı böyük uğur qazanmış yarı avtobioqrafik elementlərlə zəngin romandır və həmçinin həm nəşrinin mükəmməliyinə görə , həm də kitabın arxa üzündəki şəkilə görə həmin zamanlar ölkədə diqqət mərkəzində olmuşdur.

İlk hissəsi ən uzun olmaqla, əsər üç hissəyə bölünür və hekayəsi sevginin fərqli formalarını öyrənən gənc Coel Harrison haqqındadır.

Əsərin qısa məzmunu belədir: Coel Harrison adlı 13 yaşlı, yanlız, gənc oğlan anasını itirdikdən sonra onu doğulan zaman tərk edən atasının yanına, Yeni Orleana göndərilir. Tərkedilmiş, geniş bir sahədə olan evə çatanda atası əvəzinə onu acıqlı, əsəbi ögey anası Emi, Randolf, İdabel və evdə xidmətçilik edən iki qaradərili Cesus və Zu qarşılayır. Həmçinin evin ən üst pəncərəsindən baxan ruh kimi, qəribə bir qadın görür. Coelin israrına baxmayaraq atasının harada olduğu sirr kimi qalır və Emi ilə Randolfun onu atası ilə tanış etmək istəməməsi Coeli çox təəccübləndirir. Bütün bu qeyri- müəyyənlik Coelin təxəyüllündə fantastic xəyallar yaradır. Nəhayət Coel atası ilə tanış olanda onun iflic və ünsiyyət qura bilməməsini anlayanda çox kədərlənir. Bu səbəbdən o öz kiçik dünyasında sevgi və nəvazişi başqalarından axtarmağa məcbur qalır. Eminin Coelin orada qalmasını istəməsinin tək səbəbi atasına yəni Edvarda sonsuz qulluq edib, qayğısına qalması idi, lakin Coel bu istəyi rədd edir, bu da Ceol ilə Randolf və Eminin arasındakı münasibətlərə ciddi şəkildə təsir edir.

Əsərin əsas diqqət çəkən hissələrindən biri isə Coelin gənc İdabelə qarşı hissləri, marağı olmasıdır. Hekayə davam etdikcə, Coel və İdabel öz cinsi kimlikləri ilə mübarizə aparırlar. Coel İdabel ilə karnavala getdiyi yerdə bir qadınla tanış olur və qadın onunla münasibət qurmaq istəsə də Coel buna qarşı çıxır. Daha sonra fırtınalı gündə İdabeli axtaran Coel pnevmaniyaya tutulur və nəhayət Randolf onu sağaldır. Əsərin sonunda məlum olur ki, Coelin pəncərədən gördüyü qəribə qadın əslində Mardi Qras kostyumu geyinən Randolfdur.

*Başqa səslər, Başqa otaqlar"* romanının bir çox təəccüblü elementlərinin uğurlu şəkildə ümumən birləşməsinin səbəblərindən biri də Coelin özünü də bir qədər qeyri-müəyyən şəxs olması və hekayənin Coelin gözü ilə ifadə edilməsidir. Əsərdə rolun dəyişdirilməsi, gender müəyyənliyi və sərt təzadlı cənub ideallarına qarşı cinsəllik və sevgi ilə bağlı olan riskin izahıdır. Əsər T.Kapotenin öz gəncliyini inkişaf etdirməsində, günahsız və özünü kəşf edən Coel obrazında katarsis rolunu oynayır, o, həqiqətən kitabın mesajını daşıyan səs olan Randolf personajında öz qoca, azad şəxsiyyətinə çevrilir.

T.Kapote əsərdə Coel ilə bir çox oxşarlıqları paylaşmasına baxmayaraq, həmişə əsərin avtobioqrafik olduğunu inkar edirdi, məsələn, hər ikisi Yeni Orleanda doğulub və ata qayğısı görməyiblər, hər ikisi qohumlarının yanına yaşamaq üçün göndərilib, və hər ikisi analarının soyadların götürüblər və sairə.
Gənc müəllifin istənilməyən bir uşaq kimi yaşadığı və nəticədə homoseksuallığını qəbul etdiyi həyatı haqqında açıq şəkildə "*Başqa səslər, Başqa otaqlar*" əsərində məlumat verir.

T. Kapote əsərdə qotika və sentimentalizmi birləşdirir. Nəticə personajlara rəğbət doğuran və hər cür sevginin qiymətləndirilməsini təklif edən hibrid qotik sentimentalizmdir. "Cənub qotikası" etiketi çox təsadüfi istifadə olunub və bu yanaşma romanın sentimental elementlərini gizlədir. Personajlar yanlız qəribə və qrotesk kimi təsvir olunmur, həmçinin simpatik və acınacaqlı göstərilir.

*"Başqa səslər, başqa otaqlar"* əsərindən sonra uğurunu davam etdirərək 1949-cu ildə "*Gecə ağacı və digər hekayələr" (" A Tree of Night and other stories")* əsərini nəşr etdirdi. Buradakı hekayələr yanlızlıq, emosianallıq və tənhalıqla bağlı

problemləri göstərir və hekayələrdəki qəhrəmanların heç biri uşaq və ya böyük olmağından asılı olmayaraq yetkinlik hiss etmirlər. Topluya taxil olan hekayələrin bir hissəsi bunlardır: "*Gecə ağacı" (" ATree Night"),* " Sonuncu qapını bağla" *( Shut a Finaldoor"), "Öz ad günüdə uşaqlar" (" Children On Their Birthdays") , "Başsız Kahin" ("The Headless Hawk"), "Usta Mizeri" (" Master Misery")* . T.Kapotenin müəllifi olduğu hekayələr toplusu 1940cı illəri qorxu və təhlükəsizlik, kommunal öhdəçilik və təcrid olunma, cəmiyyət və gizli kimlik haqqında təsvirləri vermişdir. T.Kapote o dövrün narahatlıqlarını İkinci Dünya Müharibəsi nəticəsində qlobal məsuliyyətlərdən geri çəkilmək istəyən Amerika ilə müsair Amerika mədəniyyətini xarakterizə edən gərginliklərini metafor kimi istifadə etmişdir.

1950-ci ildə doqquz bölmədən ibarət olan *"Yerli Rəng" ("Local Color")* adlı əsərini çap etdirdi və əsər T.Kapotenin indiyə qədər yaşayıb səyahət etdiyi yerlərdən, şəhərlərdən, qarşılaşdığı insanlardan bəhs edir. Kitaba daxil olan doqquz bölmələr bunlardır: *"Avropaya" ("To Europe"), " İspaniyaya ilə səyahət" (" A Ride Thorugh Spain"), "Nyu York şəhəri" (New York City"), " Hollivud" (Hollywood"), "Haiti"("Haiti"), "Bruklin"(Brooklyn"), "Tanjer"("Tangier"), "Yen i Orlean" ("New Orleans"), "Işya" ("Ischia").*

İstedadlı yazıçı özünü bir neçə janrlarda sınamış və məşhur qısa hekayələr, romanlar yazmış və yaradacılığını daha da zənginləşdirərək dram əsəri yaznış və uğur əldə etmişdir. *"Otların Nəğməsi" (" The Grass Harp") a*dlı pyesi 1951-ci ildə nəşr olunmuş, filmi çəkilmişdir və əsər ağacdan hazırlanmış evdə yaşayan yetim oğlan və yaşlı iki qadının hekayəsindən ibarətdir. "*Otların Nəğməsi"* nostalji element və özünü kəşf etməklə başlayıb, irəliləyən hissələrində sosial uyğunluq və materializmin təhlükələri ilə bağlı xəbərdarlıq edən hekayəyə çevrilir. Əsərin üç əsas personajı var: Kollin, Verena və Dolli. Əsər 11 yaşlı Kollinin anasını itirməsi və atasının bu hadisədən sonra qeyri-normal davranışları, içki aludəçiliyi onun avtomobil qəzasında ölümünə səbəb olduqdan sonra Kollinin xalaları Dolli və Verenanın yanında yaşaması ilə başlayır və davam edir. Onlarla birgə Ketrin adlı xadimə də yaşayır. Dolli və Verena bir-birinin tam əksi olan personajlardır və Kollin daha çox Dollini

sevir. Bir gün Dolli ilə Verena hazırlanan ətirlərin satılması ilə bağlı mübahisə edir və Dolli, Ketrin və Kollin evdən gedərək ağac evdə yaşamağı qərara alırlar, lakin onlar getdikdən sonra Verena onların yoxluğu ilə bağlı polisə məlumat verir və polis gəlir, lakin ilk öncə onları ordan aşağı sala bilmirlər sonradan onlar evə geri qayıdır və əsər sonda ümidverirci bir sonluqla bitir. Əsərdəki ağac ev yazarın öz uşaqlıq illərində Alabamadakı ağac evindən götürülmüşdür. Pyes zərif və komik olmaqla yanaşı ağac evdə yaşamaqla o dövrün Amerikan materializmini və sosial uyğunluğu rədd edən bir qrup insanların cəhdlərindən bəhs edir. T.Kapote 1950-ci illərin konformist Amerikasına qarşı tənqidini artıraraq əsərin əsas mesajı kimi sosial qəbullanma və sevgi olaraq vermişdir. *"Otların Nəğməsi" ( The Grass Harp")* o dövr homoseksuallar və ağ dərili olmayanlar üçün daha böyük mülki hüquqlara malik olmağı xüsusi bir yol ilə göstərə bilməsə də, lakin o dövr ABŞ tarixində narahatlığa səbəb olan anları, qorxu və bacarıqsızlıq ilə bilinən qrupların Amerika demokrasiyasının vətəndaşlara hörmət və bərabər rəftar etməsini istədikləri səsi olaraq T.Kapote intoqrasiya və sosial dəyişiklik tələb etmişdir.

Növbəti bir neçə illər ərzində Trumen Kapote uydurma, fantastikaya bir qədər fasilə verərək başqa növ yazmağı qərara almışdır. Daha sonra teatr səhnəsi üçün sseanri yazmış və ilk cəhdi uğursuz olmuş, lakin sonradan ikinci dəfə cəhd edərək "*Çiçəklər evi" ("House of flowers")* qısa hekayəsinin musiqili ssenarisini yazmışdır.

Amerikada irqi ayrıseçkilik hökm sürdüyü bir zamanda T.Kapote məşhur, uğurlu əsərini *"Tiffanidə Səhər Yeməyi" ("Breakfast at Tiffany")* əsərini 1958-ci ildə nəşr etdirdi və yenidən uydurma yazıya geri qayıtdı. Hər kəsin hətta rejissorların belə marağına səbəb olan bu əsər haqqında film belə çəkilmiş və o dövrün ən uğurlu əsəri olmağı ilə yanaşı Kapotu yüksək təbəqəli insanlar arasında daha da məhşurlaşdırmışdı. Həmçinin bu əsər tənqidi mübahisələrə səbəb olmuşdur, səbəb isə o dövrün cinsi represiyyasına və qadın azandlığını məhdudlaşdıran sosial vərdişləri tənqid etməsi idi. T.Kapot əsərdə o dövrdə qeyri-adi olan qadın azadlığı mövzusunu, azad edilmiş qadın arxitepini diqqət mərkəzinə gətirmişdir və patriarxal gözləntilərinə uyğun genderlik ilə razılaşmaq əvəzinə öz arzu, istəyi ilə yaşamasının rahatlığını göstərmişdir. Biz belə bir obrazı əsərin baş

qəhrəmanı 20 yaşlı gənc qız Hollidə görə bilərik. Başqalarının ondan necə yaşamasını gözlədiyi kimi yox öz istədiyi kimi yaşayır və əsərdəki hər bir personaj buna qarşı çıxıb onun azadlığını məhdudlaşdırmağa çalışır. Əsər onu nəql edən və adı olmayan personajla Hollinin bir illik dostluğu və bu dostluq illəri ərzində Hollinin ona danışdığı həyat hekayəsindən söhbət gedir. Holli yaşadığı ev çox düzənsiz hətta mebeli belə yoxdur və əşyaları hamısı çamadanlarda və qutulardadır. O, bir bardan başqa bara gedərək kişiləri əyləncəyə dəvət edir və bu hərəkətlər həmin dövr Amerikasında əsasən olmayan qadın seksuallığı haqqındakı açıqlıq idi. Holli evində adını hələ qoymadığı pişiyi ilə qalır və varlı bir kişinin sevgilisi olmaq arzusundadır və həmçinin Tiffani adlı zərgərlik mağazası xəyalını qururan bir personajdır. Əsərin sonunda Holli həqiqətən birinə aşiq olur və bu da onu hər zamanki həyat tərzindən qurtulmağına kömək edir.

Trumen Kapote 1956-cı ildə *“Milad xatirəsi” (“ A Christmas Memory”)* adlı hekayəsini jurnalda nəşr olunduqdan sonra 1963-ci ildə yenidən *“Trumen Kapotenin seçilmiş yazıları” ( The Selected Writing of Truman Capote”)* adı ilə avtobioqrafik əsər nəşr olunur. Yeddi yaşlı bir oğlan və altmış yaşlı qadının paylaşdığı Milad hekayəsindən, dostluqdan və kənd həyatından bəhs edilir. Hekayədə Baddi adlanan yeddi yaşlı oğlan və onun kuzeni yaşlı qadının bir-biri ilə necə yaxın dost olub, hər şeyi bölüşməsindən və birlikdə keçirəcəkləri son Milad bayramından danışılır. İki dost Miladda hər il meyvəli piroq hazırlayır və yoldan keçənlərə paylayır, küknar ağacı gətirib onu bəzəyir və bir-birləri üçün hədiyyə alırdılar, lakin hər il olduğu kimi Baddi bilirdi ki, , ona veriləcək hədiyyə uçurtmadır. Hekayənin sonunda Baddi hərbiyə gedir və iki dost məktublaşırlar, lakin sonradan məktub göndərilməsi dayanır, bunun səbəbi isə yaşlı kuzeninin yaddaşını artıq itirməsi və dünyasını dəyişməsidir. Hekayədə T.Kapotenin öz uşaqlığından bəhs edilməsi öz əksini tapır və bunun üçün avtobioqrafik adlandırılır, həmçinin hekayədə əsas mövzu dostluqdan bəhs edilməsindən əlavə tənhalıq, yanlızlıq, yoxsulluq, ölüm və başqa bu cür qaranlıq elementlərdən də bəhs edilir.

T.Kapote 1961 -ci ildə yazdığı *“Günahsızlar” (“The Innocent”)* əsərini Amerikalı yazıçı Henri Ceymsin *“The Turn of the Screw”* əsərindən təsirlənərək

yazılmışdır və eyni adda *“Günahsızlar” (The Innocents”)* psixoloji və qorxulu filmi çəkilmişdir. Bu film dövrün ən məşhur fantasik və qorxu filmi olmuşdur. Qotik elementlərə rast gəlinən əsərdə mövzu dayə və onun dayəlik etdiyi uşaqlarla birgə yaşadığı evdə ruhların olmasıdır. Əsər həmçinin film Miss Giddensin işə müraciət etməsi ilə başlayır və nəticədə varlı bir ailənin uşaqları həmçinin, Giddensin öz bacısı uşaqlarının onun himayəsində qalması ilə davam edir və hekayədə Giddens evin ruhlar tərəfindən ələ keçirildiyi və bu ruhların keçmiş qubernator və onun köməkçisinin olduğu qənaətinə gəlir, lakin oxucu ruhların həqiqətən görünürdüyü yoxsa Miss Giddens tərəfindən xəyal edildiyi dəqiq deyil. Ruhlar uşaqları ələ keçirmiş və sonda Miss Giddensin uşaqları ruhlardan xilas etmək istəyi nəticəsiz qalır və faciəvi sonluqla bitir.

Məşhur yazıçı T.Kapote *“Məsələnənin mənə aid olan tərəfi”* (“*My side of the Matter”*) yumoristik əsərində yenidən qeybət məsələsini və qadın gücünün kişiləri narahat etməsi problemini önə çıxarmışdır. Hekayədə on altı yaşlı oğlanın dört günlük görüşdən sonra evlənən və özünü Alabamaya getmək üçün təhkid edən hamilə yoldaşı ilə tapır. Hekayənin adından da bilindiyi kimi məsələnin mənim tərəfi, aspekti deyilsə də, əslində başqa mövzulardan da söhbət gedir. Hekayədəki qeybət, güc və kontroldan bəhs edir, ən əsası isə kişilərin bütün qadınlar yanında kişiliklərini təsdiq etmək istəməsidir. . T.Kapote hekayədə yumoru təhkiyəçinin istəmədən də olsa özü haqqında özünün tənbəl, irqçi, qadın düşkünü olduğunu aşkara çıxarması ilə ifadə edir. Hekayədə qadın gücü barəsində olan narahatçılıq şiddət və təcrid olunma ilə kuliminasiya nöqtəsinə çatır.

Trumen Kapotenin şah əsəri kimi tanınan və üzərindən illər keçməsinə baxmayaraq hələ də ən məşhur, qeyri-fantastik və real həyat faciəsindən götürülmüş və 1966-cı ildə nəşr olunmuş “*Soyuq Qan” (“Cold Blood”)* romanıdır. Roman 1959-cu ildə Kanzasda bir ailənin dörd üzvünün qətli ilə bağlı ətraflı təsviridir. Yazıçı bu əsərini yazmaq üçün altı ilini sərf edib bütün bu faciəni detallarına qədər araşdırmış, yaxın dostu Harper Li ilə birgə bir çox müsahibələr götürmüş və qeydlər aparmışdır və qətldən altı həftə sonra qətli törədənlər həbs edilib sonra isə edam edilmişdir. Roman o dövrdə satılan ikinci ən

çox satılan kitab olmuşdur və Amerika əsəbiyyatının ən məşhur nailiyyətlərindən biri hesab olunur.

Romanın qısa məzmunu isə belədir: Kanzas ştatının Holcomb şəhərində sadə, sakit yaşayan fermer ailəsi olan Klutter ailəsindən söhbət gedir. Ailə dörd nəfərdən Herbert və Bonni Klutter və onların iki uşağı Nensi və Kenyondan ibarətdir. Klutter ailəsinin necə işgüzar olmasından və həyat yoldaşı Bonninin yataq xəstəsi olmasından bəhs edildikdən sonra bütün diqqət qətl gününə həsr olunur. 1959-cu ilin noyabr ayının 15-ində bütün ailənin qətilinin ertəsi günü Nensinin iki dostu Klutter ailəsinin hamısını ölü şəkildə tapır. Sakit, heç kəslə problemi olmayan bu ailənin qətli bütün qonşuları, yaxınları şoka və dəhşətə salır. Beş illik məhkəmədən sonra 1965-ci ilin aprelində Perri və Dik üçün ölüm hökmü verilir.

Əsər boyu Trumen Kapotenin qətl olunanlardan əlavə qətli törədənlərlə bağlı düşüncələrini və hətta onların uşaqlıq illərinə qədər araşdırıb əsərdə qeyd etdiyini görmək olar. Roman yazılan müddət ərzində yazıçı cinayətkarlar olan Perri, Dik və onların yaxınları ilə görüşlər təşkil etmiş həm cinayətin səbəbini həm də cinayətkarların düşüncəsini araşdırmışdır. Oxucularda Perrinin bütün həyat hekayəsini açaraq, uşaqlıqda və sonraki dövrlərdə üzləşdiyi çətinlikləri göstərərək ona rəhm hissi yaratmış və törətdiyi cinayət hadisəsini az da olsa anlamalarını istəmişdir. Əsərdə bütün cinayətlərin səbəbi kimi yoxsulluğu göstərmiş və yoxsulluğun insanları bu cür səbəbsiz yerə, pul qarşılığı insanları düşünmədən öldürməsindən bəhs edərək cəmiyyətin problemlərini insanlara nümayiş etdirmişdir.

Beləlikdə altı nəfərin ölümü ilə başa çatan bu əsərin həqiqi həyatdan götürülməsi oxucularda daha əsərə qarşı marağı artırırdı. 1967-ci ildə Riçard Bruksun rejissorluq etdiyi Truman Kapotun eyni adlı əsərindən götürülmüş "*Soyuq Qan" ("In Cold Blood")* filmi çəkilmiş və böyük marağa səbəb olmuşdur.

Yazıçın sonuncu əsəri isə "*Cavablanan Dua" (" Answered Prayers")* siyasi romanı olmuşdur. Buna baxmayaraq, o, yazmağa başladığı zamanlardan özünün ən böyük və yaddaqalan əsəri olacağını bildirsə də, lakin müəllifin son anlarında olan ciddi problemləri içki aludəçiliyi və ən sonunda ölümü əsəri yarımçıq etmişdir. 1970-

ci illərdə əsərin bir qismini "*Esquire*" jurnalında çap etmiş, həm tənqidçiləri həm də yaxın dostlarını məyusluğa uğratmışdır. Dostlarının həyatındakı bəzi detalları açıq aşkar yazdığı üçün sonradan demək olar ki, dostlarının çoxu onunla əlaqəni kəsmişdir.

Trumen Kapotenin ölümündən sonra ilk olaraq İngiltərədə 1986-cı ildə daha sonra Amerikada 1987-ci ildə tamamlanmamış roman kimi nəşr olunmuşdur. Bu əsərdə o real həyatdakı bəzi dostlarının prototipin yaratmışdır.

Son olaraq T.Kapotenin qısa nəsr əsərlərindən ibarət kolleksiyası 1980- ci ildə "*Buqələmunlar üçün musiqi" ( Music for Chameleons")* adı ilə nəşr olunuşdur.

Kitabda həmçinin Kapote öz karyerası, keçdirdiyi böhranlarla bağlı məlumatları oxucuları ilə bölüşmüşdür və kitab üç hissədən ibarətdir: birinci hissə altı qısa hekayədən ibarət "*Buqaləmunlar üçün musiqi" ("Music for Chameleons"),* ikinci hissə qeyri-bədii roman olan "*Əldə Oyma Taburlar" (" Handcarved Coffins"),* üçüncü hissə isə söhbətlər şəklində verilmiş qısa hekayələrdən ibarət "*Söhbət Portretləri" (" Conversational Portaits")* adlandırılmışdır. Kitabda demək olarki hər şey haqqında təsvirlər vardır. Məsələn: məşhurlar haqqında xatirələr, düşüncələr hətta söhbətlər, real həyatdan götürülmüş hekayələr, cinayət və sairə. Tənqitçilər tərəfindən çox bəyənilməsə də əsər Trumen Kapote üçün özünü həyatını, çətinliklərini, doğrularını və yanlışlarını ifadə edə bildiyi yaxşı əsərləri sırasında idi.

Məşhur yazıçı Trumen Kapote yazıçı olmaqla yanaşı həm də jurnalist olmuşdur və jurnalistlik qabiliyyətlərindən məharətlə istifadə edərək bəzi hadisələri araşdırmış və onları əsərlərində istifadə etmişdir. Jurnalist qabiliyyətlərini ortaya çıxararaq gerçək həyat hadisəsini araşdırıb, bir çox insanlardan müsahibə götürüb və hər şeyi dəqiqləşdirərək yazdığı "*Soyuq Qan" ("Cold Blood")* romanını misal çəkmək olar. Bundan əlavə yazıçının daha erkən vaxtlarda yazdığı, 1950-ci illərin ortalarında yazdığı *("Muses Are Heard")* jurnalistik povestini göstərmək olar və bu əsər Everyman Opera Kompaniyası ilə birgə Rusiyaya səfəri zamanı müşahidə etdiyi hadisələrlə bağlıdır. *("Muses Are Heard")* çox tənqidi diqqət almadığı üçün bir çoxları bu əsəri "*Soyuq Qan*" romanı üçün atılan bir addım kimi baxırdılar. Bu

jurnalistik əsəri yazıçıya jurnalistika və fantastika janrlarını birləşdirərək geniş bir iş hazırlamaq imkanı verdi.

Altmış illik həyatında yaradıcılığının sonuncu əsərindən sonra məşhur yazıçı alkoqol və narkomaniyanın nəticəsi olaraq səhhətinin pisləşməsi nəticəsində altmış yaşının tamamlanmasına bir ay qalmış Los Angelesdə 1984-cü ildə qaraciyər xəstəliyindən vəfat etmişdir.

Yaradıcılığı boyu bütün həyat detallarına toxunan Trumen Kapote ədəbi və ritorik vəsitələrlə oxuculara nəyi onlara göstərdiyini başa salmağa çalışırdı. Onun əsərlərini ilk baxışdan anlamaq çətin olsa da lakin daha dərinə getdikcə artıq anlamaq olurdu. Oxucularına ən əsas mesajı isə həyatı doyunca yaşamağın çox vacib olduğu çatdırmaq istəyirdi, çünki hər şey hər an dəyişə bilərdi. Yazıçı onu da k bildirirdiki özünü yenidən kəşf etmək onun personajları üçün çox ağrılı bir prosesdir. Əsərlərindəki qorxu və yumor arasındakı yerdəyişmə Amerika mədəniyyətindəki müsair mübarizələr: qorxunun içində güvənli hiss etmək, uyğunluq arasındakı fərdiliyi təsdiqləmək və şəxsi xoşbəxtliyi tapmaq barəsindəki həqiqətləri əks etdirir. Digər yazıçılar kimi "qaranlıq və işıq" mövzularından istifadə etmək əvəzinə daha çox Amerika mədəniyyəti və sosial mühit haqqında dərindən araşdırıb yazdığını görə bilərik. Əlavə olaraq onu da demək olarki, T.Kapote İkinci Dünya Müharibəsi, Soyuq Müharibə, kommunizm və gender haqqında açıq-aşkar istinadlar vermişdir.

Trumen Kapotenin kariyerasının yeni başladığı zamanlarda iki bir-birinə əks ədəbi formadan – realizm və romantika ədəbi formalarından istifadə etdiyini görə bilərik.

Qotik və fantastik üslübunda yazdığı əsərlərində ən əsas mövzuları qeyri-dəqiqlik, qorxu, narahatçılıq, qaranlıqdır və oxucuları hər zaman nəyin necə olacağını təxmin etməsini ilə təmin edir. Hər bir obrazı və onun yaşadığı anları çox gözəl təsvir etdiyindən, oxucu artıq hər bir şeyi öncədən təxmin edib öz təxəyyülündə görə bilirdilər. Həmçinin öz uşaqlıq təcrübələrindən bədii əsərlərin məzmunu üçün istifadə etmişdir, məsəl üçün "*Başqa səslər, başqa otaqlar" (Other Voices, Other Rooms")* əsərində homoseksuallığı qəbul edib haqqında öyrənməyə çalışan oğlan

kimi öz təcrübəsindən istifadə etmişdir. Həmçinin Trumen Kapote əsərlərində qaranlıq psixologiyadan məharətlə istifadə etdiyini görə bilərik.

Onu da qeyd etmək lazımdır ki, Trumen Kapote bütün əsərlərində qadın və kişi münasibətlərinə toxunmuş və qadın gücünü göstərməyə çalışmışdır, ən əsas isə bütün əsərlərində olmasa da, demək olarki ən məşhur əsərlərində homoseksuallıq məsələsinə toxunmuş və insanlara sevginin təkcə qadın və kişi arasında yox, həmçinin eyni cinsdən olanların da bir-birinə qarşı sevgisi ola biləcəyini nümayiş etdirməyə çalışmışdır. Əlbəttə, bu məsələyə görə çox böyük tənqidlər almış, lakin yenə də yazmağa davam etmişdir. Bu mövzu ilə bağlı toxunduğu əsərlərinə nümunə kimi *"Başqa səslər, Başqa Otaqlar" ("Other Voices, Other Rooms"), "Tiffanifə səhər yeməyi" (" Breakfast at Tiffany"), "Otların nəğməsi" ( The Grass Harp"), "Soyuq Qan" (" In Cold Blood")* və başqa məşhur əsərlərində görmək olar.

## 1.2. Yazıçının yaradıcılığında real faktlar və real insanlar

Amerika tarixində yaşanan bütün hadisələr: müharibə, firavançılıq, qarşıdurma və üsyanlar o dövr yazıçılarının da əsərlərində indiki dövrə aydın şəkildə gəlib çatmışdır. İkinci Dünya müharibəsindən sonra Amerikada bir çox vətəndaşların xeyrinə irəliləyən dəyişikliklər baş verdi və ən əsası ailə dəyərlərinə xüsusi diqqət göstərilmiş, ideal orta təbəqə nümayəndəsi ailələr genişlənmişdir. Lakin bu xoşbəxtçilik çox çəkmədən 1960-cı illərdə insanların üsyanları və qarşıdurmaları nəticəsində ölkədə anidən böhran və çöküş yaşanmağa başladı. Həmin illər ərzində insanların sosial idarəetməyə şübhə ilə yanaşmağı və ifadə, fikir və söz azadlığı tələblərinin geniş vüsət aldığı zamanda Amerika mədəniyyəti tamamilə dəyişikliyə məruz qalmışdır. 1960-cı ildə Postmodernist cərəyanın yaranması ilə Amerika ədəbiyyatında bir çox dəyişikliklər baş vermiş və ədəbiyyatda gerçəkliklə birgə fantastikanı istifadə edərək, həyatın acı gerçəklərini insanlara nümayiş etdirilməyə çalışılmış, qadın azadlığı ən əsas isə Afrikan-Amerikan qadınların normal yaşaya bilməsi üçün həm üsyanlar başladılmış həm də bu acı gerçəkliyi əsərlərində müəlliflər istifadə edərək həmin insanlara köməklik göstərməyə çalışmışlardı.

1960-cı illərdə realizm ədəbi məktəbinin nümayəndələri Amerika mədəniyyətinin və cəmiyyətinin reallığını artıq anlaya bilmədikləri üçün realizmi düzgün ədəbi forma kimi istifadə etmək fikrindən daşınmışdırlar. Realist formada yazılan əsərlərin tükənməsindən istifadə edən bir qrup yazıçılar bu fürsəti dəyərləndirib, özlərini Yeni Jurnalistlər adladırıb, realizm və müasir dövrün cəmiyyətinin keçirdiyi böhran və sarsıntıları, insanların üzləşdiyi çətinliklərindən üz döndərmək yerinə onları olduğu kimi təsvir etmişdirlər. Tarixi və dəqiq məlumatların olduğu kimi verilməsi oxucuların və digər yazıçıların "Yeni jurnalistika" ya maraqlarını daha da artırdı və həm jurnalist həm də yazıçı olanlar üçün çox böyük bir potensial olmuş, jurnalistlik qabiliyyətlərindən istifadə edərək hər şeyi olduğu kimi, dəqiq formasını araşdırıb, daha sonra əsərlərində istifadə etmişdirlər.

Yaşadığı dövr və bu günə qədər yazıb yaratdığı əsərləri ilə məşhur olan Trumen Kapote əsərlərində o zamanki Amerikanın həyat hadisələrini, cəmiyyətin üzləşdiyi problemləri, cinsi ayrı-seçkiliyi, cinayəti həm uydurma həm də real həyat hadisələri əsasında vermişdir. Real həyat hadisələri əsasında yazdığı əsərləri yazmazdan öncə öz jurnalistika biliklərindən istifadə edərək, hər bir detalı öncədən araşdırmış, həmin yerlərə gedərək, şahidi olmuş insanlarla müsahibə aparmış, daha sonra yazmağa başlamışdır. Trumen Kapotenin şah əsəri kimi tanınan və üzərindən illər keçməsinə baxmayaraq hələ də məşhur olan, real həyat hadisəsindən götürülmüş, real insanlar haqqında yazdığı *"Soyuq Qan" ("In Cold Blood")* romanıdır. Roman 1966-cı ildə nəşr olunmuş və 1959-cı ildə Kanzasda baş vermiş bir ailənin faciəsini nəql edir.

Qətl törədilən zamanlar New York Times qəzetində bu cinayətlə bağlı "Wealth Farmer, 3 of Family" başlıqlı məqaləni oxuyan Trumen Kapote bu faciədən çox təsirlənmiş və həm cinayətlə, həm də cinayət baş verən məkan olan, və ona yad olan Kanzasla bağlı araşdırmalar etməyə başlamışdır. İlk öncə Kanzasa dostu Harper Li ilə birlikdə gəlir və burada olduğu zaman artıq düşünür ki, bu hadisə onun düşündüyü qətllə bağlı yazmaq istədiyi məqalədən də həcmcə böyük olacaq. Yaxın dostu Harper Li ilə birgə jurnalist məharətindən istifadə edərək insanların rəğbətini qazanmış və bunun sayəsində bir çox müsahibələr götürmüş və qeydlər aparmışdır və qətldən altı həftə sonra qətli törədənlər həbs edilib sonra isə edam

edilmişdir. Roman o dövrdə ikinci ən çox satılan kitab olmuşdur və Amerika əsəbiyyatının ən məşhur nailiyyətlərindən biri hesab olunur. Əsərin əvvəlində qətlə yetirilən ailənin qonşularından, yaxınlarından toplanan məlumatlar əsasında onlar haqqında ümumi məlumat verilir daha sonra onların qətli və necə öldürülməsi, qətlin altında yatan səbəbləri, qətli törədəblərin hansı səbədən bu cür vəhşi bir yola əl atmaları, cinayətkarların keçmiş həyatları ilə bağlı araşdırma edib və cinayətkar olmalarının altında yatan səbəbləri üzə çıxararaq oxucuların onları az da olsa belə anlamağa çalışmasını və qətli törədənlərin necə həbs olunması və edam olunması haqqında bəhs edilir.

O, illər ərzində bu dəhşətli cinayət hadisəsi ilə birgə o dövr kiçik cəmiyyətin arasındakı şiddəti, insanların psixoloji düşüncəsini, həmçinin iki cinayətkarın psixoloji düşüncələrini, 1950-ci illərdəki Amerikanın düşüncəsini, qorxusunu, qanunu göstərməyə çalışmışdır. Trumen Kapote gerçək bir hekayəni yazmaq istədiyi üçün bütün detalları araşdırıb, düzgün faktları qeyd etmək üçün Kanzasa gedərək bu hadisəni beş, altı il araşdırdıqdan və yaxında olan qonşulardan, ailəni və cinayətkarları tanıyan və qohumları olan insanlardan müsahibələr götürdükdən və bütün hadisənin səbəblərini qismən də olsa tapdıqdan sonra əsəri yazıb bitirmişdir. Real həyat hadisəsini və real insanları təsvir edən T.Kapote romanda sadəcə günahsız qurbanların həyatının təsvirindən daha çox cinayətkarların həyatın daha önə çıxararaq diqqəti onlara doğrultmuşdur.

Amerikada 1950-ci illərdə yoxsulluq bəzi üstün təbəqəli insanlar üçün problem olmasa da aşağı təbəqələr üçün çox çətin keçirdi, yoxsulluq və aclıq yetkinlik yaşına çatmayanların oğurluq, quldurluq, qətl törətmələrinə və müxtəlif quldur dəstələr yaratmaqlarına səbəb olmuşdur. Bununla bağlı bütün jurnallarda bəhs edilmiş, ən əsas mövzu olmuş və filmlər, kitablar, qəzetlər, radiolar ancaq bu mövzunu daha da aktuallaşdırmışdırlar. Trumen Kapote həm bu mövzu ilə əlaqədar həm də dəhşət verirci həyat hekayəsini və insanların həm həmin zamana olan düşüncələrini, həm də həyata baxış tərzini "*Soyuq Qan*" ("*In Cold Blood*") kitabında göstərməyə çalışmışdır. Əsərdə uşaq vaxtı alınan travmaların və yoxsulluğun da qismən yol açdığı cinayətkarlıq mövzusunu ən yaxşı təsvirini qatillərdən biri olan Perri

personajının obrazında insanlara göstərmişdir və həmçinin digər qatil Dikin ailəsinin də vəziyyətinin də aşağı səviyyə kimi və hər an daha da aşağı səviyyəyə düşə biləcəyindən də bəhs edərək əslində bütün cinayət və qanun pozğunluğuna yoxsulluğun yol açdığını ən əsas səbəb kimi göstərmişdir, beləliklə, qanun pozuntusu, zorakılıq, yoxsulluq, cinayət kimi o dövrün ən əsas problemlərini bir araya gətirərək məharətlə bir kitabda bütün problemlərdən bəhs etmişdir. Həmçinin Kapotenin yaxşı tanımadığı və araşdırmaya gələndə daha yaxından araşdırıb tanıdığı, lakin hər kəs tərəfindən normal və sakit yer kimi tanınan Kanzas əyalətinin bir neçə cinayətə meyilli, pul qarşılığı səbəbsiz yerə cinayət törətməyə, adam öldürməyə hazır olan insanların hətta ən əsas yeniyetmələrin olduğunu bildikdən sonra həmin əyalətin təhlükəli yer olduğunu bilərək burada ölüm hökmünün yenidən yaradılmasının tərəfdarı idi.

*"Soyuq qan" ("In Cold Blood")* romanından da bəlli olduğu üzrə bu faciə 1959-cu il noyabr ayının 15-ində Klutter ailəsinin 4 üzvünün vəhşicəsinə öldürülməsi ilə başlayır. Klutter ailəsi Kanzas ştatının Holcomb şəhərində yaşayan, hər kəs tərəfindən sevilən, mehriban, heç kəslə mübahisəsi olmayan, firavan yaşayan, hörmətli bir əkinçi ailəsidir. Ailə ailənin başçısı Herb Klutter, onun yoldaşı Bonni və övladları 15 yaşlı oğlu Kenyon, 16 yaşlı qızı Nansidən və 2 evdən ayrı yaşayan övladlardan ibarətdir. Əsərdə ailənin necə işgüzar və sadə bir ailə olmasından bəhs edildikdən sonra bütün diqqət qətl törədilən günə veririlir. Qətli törədən cinəyatkarlar Dik və Perri isə səyahətdən qayıtdıqdan sonra pulları olmadığı və Klutter ailəsinin evində gizli seyf haqqında yalan məlumat aldıqları üçün qətl günün gecəsi oğurluq məqsədi ilə Klutter ailəsinin evinə basqına keçərək, böyük miqdarda pul tapacaqlarını ümid edirlər, lakin planları istədikləri kimi getmir. Herbdən pul ilə dolu seyifin harada olduğunu soruşurlar və o belə bir şeyin onlarda olmadığını dedikdən sonra onların hamısnın əllərini, ağızlarını bağlayaraq, hər birini ayrı-ayrı otaqlara qoyaraq evi axtarmağa başladılar. Nəhayət, uzun müddətli axtarışdan sonra evdən qırx dollardan başqa heçnə tapmayan qatillər onları öldürmək qərarına gəlir və Perri Herbin boğazını kəsir sonra isə sifətinə atəş açaraq onu öldürür, bunu görən Dik isə ailənin qalan üzvlərini ov tüfəngi ilə başından atəş açaraq həmin an öldürür.

Hadisənin səhəri günün Nansinin yaxın dostu Sue onların evinə gəlir və Nansini yerdə qanlar içində yataraq öldürüldüyünü görür daha sonra polis çağırırlar və polis gəldikdən sonra başqa otaqlarda ailənin digər üzvlərinin cəsədini tapırlar.

Beləliklə, bu dəhşətli hadisənin səbəbini və qatillərin kim olduğu tapmaq üçün araşdırmalar başlayır və araşdırmanı aparan dedektiv isə Herb və Bonninin keçmişdə dostu olmuş Alvin Divey olmuşdur, bu sırada şəhər əhalisi qorxudan və şokdan artıq bir-birilərindən şübhə etməyə başlayırlar və şəhər bu hadisə ilə birgə bir-birinə qarışır. Bütün bu araşdırma və şübhələr başlayan zaman Dik və Perri aradan çıxaraq, Mexikoya gedirlər. Bu sırada araşdırmalar davam edir, bəzi şübhəlilər tapılsa da, sonradan onlar olmadığı bəlli olur, bütün şahidlərdən, qonşular, qohumlardan sorğu-suallar götürməyə davam edirlər, nəhayət Floyd Vells adlı Dikin həbsxanada olan tanışı Dik və Perri ilə bağlı detektivlərə məlumat verir, beləliklə artıq cinayətin kim tərəfdindən törədildiyi bilinir və onların axtarışına başlanır. Həmçinin Floyd Vells Klutterlərin keçmiş işcisi olmuş və bütün bu pulla dolu seyfin onların evində olduğunu da Dikə o demişdir. Dikin valideynləri ilə də sorğu təşkil edilir. Beləliklə, Dik və Perri gah Miyami, gah Las Vegasa getsələr də sonunda oğurladıqları avtomobil polislər tərəfindən tanındığı zaman, 1960-cı ildə onlar həbs olunur. Həbs olunduqları zaman ilk öncə yalan bir hekayə danışıb cinayəti ört-bastır etməyə çalışsalar da, Perri Dikin hər şeyi danışdığını bilir və o, da cinayəti etiraf edir. Dik qətillərə sadəcə ortaq olduğunu deyərək, bütün cinayəti Perrinin üzərinə atır. Perri etirafında isə Herbeti ilk planın uğursuzluğu və qəzəbindən öldürür lakin Kenyonu öldürmək fikri yox idi sadəcə o həmin an Herbet Kenyon birlikdə olduqları üçün onu da öldürməli olur və qalan iki qətlin isə Dik tərəfindən törədiliyin bildirir və gerçek də onun dediyi kimi olur.

Kanzasa geri qaytarıkdıqdan sonra iki cinayətkarın məhkəmə prossei başlayır, psixiatr Dikin şəxsiyyət pozğunluğu ola biləcəyi və Perrinin isə şizofreniyadan əziyyət çəkdiyini önə sürərək, onlara verilən ölüm hökmünün müddətin beş il qədər uzada bilirlər, lakin edilən bütün apellasiya şikayətlərinə baxmayaraq, 1965-ci ilin aprelin 14-ündə törətdikləri cinayəstin cəzası olaraq edam olunurlar. İlk olaraq Dik

edam olunur və asıldıqdan 20 dəqiqə sonra ölür, daha sonra isə günün sonunda Perrinin də öldüyünü bildirirlər.

Trumen Kapote bu hadisəni araşdırdığı sırada romanı yazmağa başlamış və bütün prosseslərdə yaxından iştirak etmiş, Dik və Perri ilə bir neçə görüşlər təşkil etmiş və onları ziyarət edərək cinayətin səbəblərini araşdırmış və Perriyə qarşı xüsusi bir yaxınlıq hiss etmişdir, hətta Dik və Perri edam olduğu zaman yazıçı da orada olmuşdur və onlarla duyğusal olaraq bağlanmışdır. Yazıçıya bütün olanlar nə qədər pis təsir etsə də, 1965-ci ilin yayında kitabın son qalan hissəsini tamamladı və payızda çap etdirdi. Roman çap olunduqdan sonra həqiqi həyat hadisəsinin birə-bir təsviri olduğu üçün oxucuların diqqətini çəkmiş və çox alınanlar siyahısına daxil olaraq, yazıçıya dünya şöhrəti gətirmiş və çap olunduğu dövrdən müsair dövrdə belə roman hələ də öz məşhurluğu qoruyub saxlamışdır.

Qətl hər kəs üçün bir dəhşət və qorxu gətirmiş, yaxınlıqdaki insanlar artıq ən güvəndiyi insanlardan hətta bir-birlərindən də şübhələnməyə başlamış, artıq qapılarını, pəncərələrini qorxudan möhkəm bağlayır və axtarış müddətində şəhərdə çox az vaxt keçirirdilər. Hətta bəzi yüksək təbəqəli insanlar artıq başqa şəhərə köçməyi planlayırdılar. Bütün bu hadisənin hər kəsə şok və dəhşət gətirməsindən əlavə Nansinin dostu Sue və sevgilisi Bobbi bu hadisədən ən pis təsirlənənlərdən olmuşdular.

Trumen Kapote əsəri yazdığı vaxtlar saysız qeydlər götürmüş, hətta Dikin əsgərlik dostu ilə olan məktublaşmasını da qeydləri sırasına daxil etmiş, həmçinin Perri və Dik ilə də görüşlər təşkil etmişdir. Yazar sonralar Perrinin ona xoş təsir bağışladığını bildirmiş və edam cəzasına xoş baxmadığını da qeyd etmişdir.

Böyük uğura səbəb olan bu roman yazılan zamanlar jurnalistika ilə bağlı bir sıra dəyişikliklər gedirdi və bu dəyişiklərdən biri isə jurnalistlərin bədii ədəbiyyatın hekayə üsulundan istifadə etməsi idi ki, bu da "Yeni Jurnalizm" ("New Journalism") adlandırılırdı. Həmin zamanlar Amerikasında baş verən acı həqiqətləri yazmaqdan üz döndərən bəzi yazıçılar həmçinin realizmdən də üz çevirərək başqa üslubdan istifadə etməyə çalışmış və nəticədə Yeni Jurnalizm üzvləri jurnalistlik qabiliyyətlərindən istifadə edərək gerçəklikdə baş verən hadisələri, insanların üzləşdiyi problemləri

dərinliyinə enərək və həssaslıqla əsərlərində istifadə edərək dünyaya çatdırmışdır. Tom Wolfe, Joan Didion, Norman Mailer, Trumen Kapote, Hunter S.Thompson "Yeni Jurnalizm" yaradıcılarından hesab olunurdular. Trumen Kapote kimi o dövrlər məşhur yazıçının "*Soyuq Qan*" romanını "Yeni jurnalizm" üslubunda nəşr etdirməsi həm T.Kapote həm də jurnalizm üçün böyük uğur qazandırmışdı, lakin sonradan yazıçı əslində yeni "qeyri-fantastik roman" adlanan janr yaratdığını və "yeni jurnalizm" adlanan sahənin bir hissəsi olmadığını açıqladı.

Roman 4 əsas hissədən ibarətdir: birinci hissəsi "The Last To See Them Alive", ikinci hissəsi "Persons Unknown", üçüncü hissəsi "Answers", dördüncü hissəsi isə "The Corner" adlanır. İlk hissədə Klutter ailəsinin ölümlərindən əvvəlki həyatları haqqında, necə yaşadıqları, nə işlə məşğul olduqları, Nansi və onun sevgilisi Bobbi ilə münasibəti və bu münasibəti sevməyən Herb Klutterlə bağlı, onlardan bir neçə kilometr uzaqlıqda olan Dik və Perri və onların Klutter ailəsinin evinə oğurluq etmək istədikləri planla bağlı məlumat verilir. "The Last To See Them Alive" adlanan birinci hissə Klutter ailəsinin öldürülməsi və cəsədlərinin tapılması ilə başa çatır.

Kitabın ikinci hissəsi sayılan "Persons Unknown" Kanzas əyalətinin araşdırma mərkəzindən cinayət baş verən yerə gəlib araşdırmalara başlayan dedektivlərlə başlayır. Daha sonra Dik və Perrinin qətldən sonra hara getdikləri, necə yaşadıqları, gizləndikləri, bir-biri ilə olan münasibətlərindən bəhs edilir.

Kitabın üçüncü hissəsində onların axtarışı və oğurladıqları avtomobilin tanınması ilə həbs olubması və daha sonra cinayəti etiraf edərək, Kanzasa məhkəməyə gətirilməsindən bəhs edir.

Kitabın dördüncü hissəsində isə cinayətkarların məhkəməsi və psixoloji problemlər sayəsində 5 il müddət çəkən məhkəmənin sonda onlara edam hökmü verilməsi və edam olunması ilə başa çatır. Həmçinin oxucuların onları daha yaxından tanıması üçün uşaqlıq illəri və indiyə qədər necə biri kimi tanındıqları barədə məlumatlar verilir.

Trumen Kapotenin istifadə etdiyi uğurlu üsullardan biri də əsərdə gərginlik və marağı artıraraq gözləntidə saxlamaqdır ki, hadisələrin növbəti hissəsini oxucuya maraqla oxumağa kömək edir. Yazıçı bu üsuldan "*Soyuq Qan*" əsərində də istifadə

etmişdir. Roman hər nə qədər real həyat hadisəsindən götürülsə də və oxucular bütün hekayəni və sonunu bilsə də kitabı maraqla oxumuş və T.Kapotenin məharətinə heyran qalmışdırlar. Yazıçının real hadisəsinə öz fikirlərini, bütün cinayətdən edama qədər olan mərhələlərə baxışlarını da göstərərək möhtəşəm bir əsər ortaya çıxarmışdır və çap oldunduğu ildə ən çox ikinci satılan və oxunan cinayət kitabı olmuşdur. Kitabın nəşrindən bir il sonra 1967-ci ildə Riçard Bruks rəhbərliyi ilə filmi çəkilmiş və əsərin özü kimi filmi də çox böyük uğurlar və mükafatlar qazanmışdır.

Bir çox tənqidçilər bir faktı qeyd etmişdilər ki, romanda T.Kapotenin qatil Perriyə diqqəti daha çox vermişdir. T.Kapote əsəri sadəcə qurbanların həyatından yox həm də cinayətkarların həyatından da bəhs edərək, hər iki tərəfin gözündən həyat hekayəsini izah etməyə çalışmışdır. Dik və Perri həbs olunan zaman T.Kapote onlarla bağlı araşdırmalar aparmağa başlamış və uşaqlıq dövründən indiki hala qədər olan vəziyyətlərin araşdırmışdır.Yazıçı qatillərin hekayələri ilə tanış olduqca Perrini özünə daha yaxın hiss etmiş və keçmiş hekayələri demək olar ki bir-biri ilə çox oxşar idi. T.Kapotenin sevimli personajlarından olan Perri haqqında isə bunu demişdir: Perri ilə mən sanki eyni evdə yaşayıb, böyüdük və günlərin bir günü mən evin ön qapısından çıxarkən o, arxa qapıdan çıxdı.

Perri ilə bağlı bunları qeyd etmişdir ki, o, xoşbəxt bir ailədən gəlmirdi və uşaq vaxtı atası anasına işgəncələr vermiş, onun özünü isə ancaq döymüşdür. Perrinin anasının ölümündən sonra uşaqlıq illəri ancaq uşaqlar evdində keçmiş, uşaq vaxtlarında belə bəzi həbs həyatı yaşamış və bu da onun sonrakı həyatına təsir etmişdir və sonralar bir neçə oğurluq etmişdir. Qanun pozuntusu olan bir mühitdə yaşadığı üçün Perrinin Dikin hazırladığı Klutter ailəsinin evinə oğurluq üçün getmək planını qəbul etməsini biraz da olsa anlamaq və başa düşmək olar. Bu məsələyə diqqət yetirdikdə yazıçı oxuculara Perrini Dikə nisbətən daha xoş təsir bağışlayan biri kimi təsvir etmiş, Perri ilə bağlı keçmiş həyat hekayəsi və böyüdüyü mühit oxucuların onu başa düşməsini təmin etmişdir. Perri hər zaman böyük miqdarda məbləğ tapmaq arzusunda olmuş və məhz pul üçün oğurluğa əl atmışdır. Dik isə hər zaman başqalarını necə döydüyünü, yaraladığını danışaraq bununla övünürdü, lakin gerçəkdə avtomobil qəzasında öldürdüyü itdən başqa heç kimə zərər verməyə cəsarəti çatmamış və oğurluq planını

onun hazırlamasına baxmayaraq iş öldürməyə gəldikdə hər şeyi Perrinin üzərinə atmış və cəsarət edə bilməmişdir. Perri Herbin boğazını kəsdiyini belə anlatır ki, bıçağı Dikin əlindən alıb ona sadəcə lovğalanmaq və heç nədən çəkinmədiyini göstərmək istəyirmiş, şüurlu halda onun boğazını kəsməyib və boğulma səsi eşidəndən sonra Herbertin qanlar içində boğulduğunun fərqinə varıb:

*"Dick was holding the knife. I asked him for it, and he gave it to me, and I said, 'All right, Dick. Here goes.' But I didn't mean it. I meant to call his bluff, make him argue me out of it, make him admit he was a phony and a coward. See, it was something between me and Dick. I knelt down beside Mr.Clutter, and the pain of kneeling—I thought of that goddam dollar. Silver dollar. The shame. Disgust. And they'd told me never to come back to Kansas. But I didn't realize what I'd done till I heard the sound. Like somebody drowning. Screaming under water."* [13,s.244].

( Dik bıçağı tuturdu. Mən ondan onu mənə verməsini istədim və o verdi, 'Yaxşı Dik, budur.' Amma mən bunu nəzərdə tutmamışdım. Mən onun lovğalandığını demək, mənimlə mübahisə etmək, saxtakar və qorxaq olduğunu etiraf etməsini nəzərdə tutmuşdum. Bax, bu mən və Dik arasında olan bir şey idi. Cənab Klutterin yanında diz çökdüm və diz çökməyin ağrısını hiss etdim— o lənətə gəlmiş dolları düşündüm. Gümüş dollar. Ayıb. Niftət. Onlar mənə heç vaxt Kanzasa qayıtmamağımı dedilər. Səsi eşidənə qədər nə etdiyimin fərqinə varmadım. Sanki kimsə boğulur. Suyun altında qışqırır.) [ Tərcümə məxsusdur Ləman Əliyevaya ]

Perri ilə Diki müqayisə etdikdə isə xoşbəxt, onu sevən bir ailəsi olması, normal keçən uşaqlığı və normal uşaqlar kimi məktəbə getməsinə baxmayaraq Dik daha kobud, sərt və duyğusuz biri kimi göstərmiş və qəsdən iti öldürmə səhnəsini əsərdə qeyd etmiş, həmçinin uşaqlara qarşı cinsi marağı olduğunu da qeyd etmişdir Həmçinin, Perrinin Dikə qarşı duyduğu hisslərdən də mətnaltı şəklində bəhs edilmişdir.

Trumen Kapote Perrinin ailəsiz şəkildə böyüyüb, ailə sevgisindən uzaq qalmasını ən mədəni və tam xoşbəxt bir ailə olan Klutterlərini öldürməsi ilə parallelik təşkil etmişdir.

Perri və Dik arasındakı fərqlərdən biri kimi isə onların cinayəti törətdikləri zaman cinayət haqqındaki olan düşüncələri idi. Perri bunu edən zaman ikinci bir plan barəsində də düşünmüş və bunu necə edəcəyini haqqında detallıca düşünmüşdür. Cinayətdən sonra belə bir hadisəni edə biləcəyimi düşünməzdim deyərək düşüncəsini dilə gətirir, lakin Dik Perrinin tam əksinə bu haqda danışmaq belə istəmir və özünü çox soyuq qanlı göstərir. Bundan əlavə hətta onu da qeyd etmək lazımdır ki, Perri hər nə dərəcədə qatil olsa da, həqiqətən onları öldürmək istəmirdi, onların ölüm səbəbini isə onun uşaqlıqda çəkdiyi əziyyətin cəzasını Klutter ailənin çəkməli olduğun düşünüb bu cür izah edirdi qətli və təsəlli tapırdı:

*"And it wasn't because of anything the Clutters did. They never hurt me. Like other people. Like people all my life. Maybe it's just that the Clutters were the ones who had to pay for it."* [13, s.290].

(Bu Klutterlərin etdikləri heç bir şeyə görə deyildi. Onlar heç vaxt məni incitməyiblər. Həyatımda olan başqa bütün insanlar kimi. Bəlkə də bunun əvəzini sadəcə Klutterlər ödəməli idi.) (L.Ə)

Perrinin etdiklərindən utanıb, peşman olduuğun göstərməyə çalışan Trumen Kapote Perrinin həbsxanada olarkən ona yemək hazırlayan qadının dediklərini belə qeyd etmişdir:

*" After everbody had gone, and I'd start to wash some dishes—I heard him crying. I turned on the radio. Not to hear him. But I could. Crying like a child. He'd never broke down before, shown any sign of it. Well I went to him. The door of his cell. He reached out his hand. He wanted me to hold his hand, and I did, I held his hand, and all he said was, "I'm embraced by shame." I wanted to send for Father Goubeaux—I said first thing tomorrow I'd make him Spanish rice—but he just held my hand tighter".* [13, s.464].

(Hər kəs getdikdən sonra, Qabları yumağa başladım və onun ağladığını eşitdim. Onun səsin eşitməmək üçün radionu açdım. Amma eşidirdim. Uşaq kimi ağlayırdı. Əvvəllər olanlara görə heç vaxt üzgün olduğunu hiss etdirməmişdi. Onun yanına getdim. Əlini mənə tərəf uzatdı. Əlimi tutmaq istəyirdi və mən də onun əlini tutdum, və bütün dediyi isə "Etdiklərimdən çox utanıram" idi. Rahib Qoubeksi çağıra

biləcəyimi dedim. Sabah ona İspan plovu bişirəcəyimə də söz verdim— lakin o heçnə deməden əlimi daha da bərk tutdu.) (L.Ə)

Kitab sona yaxınlaşdıqca oxucular artıq cinayətin altında yatan psixoloji düşüncələri və travmaları anlamış və qatillərin cinayətkar olmaq və qətli törətməkdə haqlı səbəblərinin olduğu obrazlar kimi düşünülmüşdür. Belə ki, uşaqlıqdan gələn acı hisslərin, travmaların və yoxsulluğun da qismən payı olduğu bu insanların necə belə bir insana, cinayətkara çevrilməsinin izahıdır. Əsərin sonunda Perri ilə Dik arasında olan fərqlərdən biri kimi Perrinin etdiklərindən peşman olmasını, Dikin isə əksinə heç bir peşmanlıq hissi keçirməməsini, hətta edam olunmağa gedərkən belə heç bir reaksiya verməmişdir. Yazıçının bütün bu detalları məharətlə istifadə edərək təhtəlşüurda sıxışdırılmış travmaların sonrakı dövrdə insana necə təsir etdiyini Perri və Dik obrazında çox gözəl təsvir etmiş və dövrün ən məşhur real həyat hadisəsini təsvir edən bir əsər yaratmışdır. .

Beləliklə, real həyatdakı qatilləri eyni ilə "*Soyuq Qan*" romanında təsvir edən Trumen Kapote qətli törədən Perri ilə Dikin əslində necə bir-birindən fərqli olduqlarını və Perrinin keçmiş həyat hekayəsini də göstərərək, onun necə həssas biri olduğunu və uşaqlıqdan aldığı travmaların onun indiki vəziyyətə gətirib çıxardığını oxuculara anlatmağa çalışmışdır. Postmodernist nöqteyi zərədən əsərə diqqət yetirsək yazıçı postmodern cərəyanın xüsusiyyətlərinə uyğun gələn real həyat hadisəsinin təsvirini yaradaraq oxucular üçün həm intertextuallıqdan həm də ironiyadan istifadə edərək mükəmməl kitab yaratmışdır. Həmçinin müəllif özünün uşaqlıqdan yaşadığı travmaları da bir növ Perri personajının obrazında nümayiş etdirmişdir.

Bir çox tənqidçilər "*Soyuq Qan" ( "In Cold Blood" )* yazıldığı vaxt ərzində və kitabı oxuduqdan sonra belə bir çox səbəblər göstərərək təmkinli yazıçı Trumen Kapoteni tənqid etmişdirlər və bu tənqidlərdən biri də əsərdə real hadislərdən əlavə fantastik və uydurma elementlərin olduğunu da bildirirdilər. Lakin T.Kapote bu tənqidlərə qulaq asmamış və özü bildiyi üsulda yazıb yaratmışdır. Yazıçının da bildirdiyi kimi əsərdə uydurma sadəcə kitabın sonunda ümidverici sonluqla bitirmək istədiyi üçün vermişdir. Bu səhnə əsərin tam sonunda qəbiristanlıqda Sue ilə Alvin arasında olan söhbətdən ibarətdir və Kapote son olaraq fikrini və insanlara həyat

davam etdiyini demək üçün bu səhnə vasitəsi ilə fikrini bildirmişdir. Sonda olan söhbətdə oxuculara Sue və başqa cinayətdən təsirlənənlərin artıq geriyə deyil gələcəyə baxmağın vaxtının gəldiyini və həyatın davam etdiyini və nə olur olsun zamanın irəlilədiyini göstərərək oxuculara geriyə yox, irəliyə baxmağı və ümidin hər zaman olduğunu göstərməyə çalışmışdır..

Trumen Kapote Cənub Qotik yazıçısı olmağına baxmayaraq *"Soyuq Qan" ("In Cold Blood")* kitabını yazdıqdan sonra bəzi tənqitçilər onun bu üslubdan kənara çıxdığını və cənub qotika elementlərinin kitabda mövcudluğunu inkar edirdilər. Əsərə diqqət yetirdikdə əsərdə qotik janrın elementlərin olduğunu görmək çox asandır, lakin bu qotik elementlərin cənub qotik üslübü olub-olmadığın demək dəqiq deyil. Bundan əlavə daha dəqiq desək yazıçının *"Soyuq Qan"* romanından öncə yazdığı əsərlərə baxdıqda asanlıqla cənub qotik üslubunun elementlərinə rast gəlirik, lakin "*Soyuq Qan"* romanı ilə öncədən yazdığı əsərləri müqayisə etsək, "*Soyuq Qan"* romanında cənub qotik elementlərinə daha az rastlayırıq.

Sonda onu da qeyd etmək olar ki, bəzi tənqitçilər və tədqiqatçıların fikrincə Trumen Kapotenin *"Soyuq Qan" ("In Cold Blood")* əsəri yazıçı F.O'Konorun "Yaxşı adam tapmaq çətdindir" *(" A Good Man Is Hard To Find")* və yazıçı T.Drayzenin "*Amerikan Faciəsi" (" Amerikan Tragedy")* əsərləri ilə əlaqəsinin olduğunu düşünüb bu əsərləri araşdırmışlar.

Tanınmış yazıçı Trumen Kapotenin real həyat faktları və real insanlarla bağlı və hər kəs tərəfindən tanınan və yazıçıya dünya şöhrəti gətirən "*Soyuq Qan" ( " In Cold Blood")* əsərindən sonra əvvəlkindən daha da çox tanınmağa və Amerikanın elit insanları arasında özünü görməyə başladı. Bu şöhrətinin ardından yazıçı 1966-cı ildə "*Cavablanan Dua" ( " Answered Prayers")* romanını üzərində işləməyə başladı. Yazıçın sonuncu əsəri olan *"Cavablanan Dua" (" Answered Prayers")* romanı real həyatdaki dostlarının və başqa tanınmış insanların həyatından götürülərək yazmışdır. Buna baxmayaraq, o, yazmağa başladığı zamanlardan özünün ən böyük və yaddaqalan əsəri olacağını bildirsə də, lakin müəllifin son anlarında olan ciddi problemləri içki aludəçiliyi və ən sonunda ölümü əsəri yarımçıq etmişdir. 1975-1976-cı illərdə ilk üç hissəsi "*Esquire*" jurnalında çap edilən əsərdə

həm görkəmli insanların adları çəkilərək onların həyatlarından gizli, heç kəsin bilmədiyi sirrlərdən, dedi-qodudan, bəzilərinə utanc gətirən mövzulardan, həmin dövrdəki cinsi mübadilədən, ümumən 1950-ci illərin Amerikanın elit insanlarından bəhs edərək ciddi anlamda səs-küyə səbəb olmuş, həm tənqidçiləri həm də yaxın dostların məyusluğa uğratmışdır. Əsərin birinci hissəsi *“Unspoiled Monsters”,* ikinci hissəsi *“Kate McCloud”,* üçüncü hissəsi isə *“La Cote Basque”* adlanır. Dostlarının həyatındakı bəzi detalları açıq aşkar yazdığı üçün sonradan demək olarki dostlarının çoxu onunla əlaqəni kəsmişdir. Trumen Kapotenin ölümündən sonra ilk olaraq İngiltərədə 1986-cı ildə daha sonra Amerikada 1987-ci ildə tamamlanmamış roman kimi nəşr olunmuşdur. *“Cavablanan Dua”* yazıçının ən məşhur əsəri olmasa da, lakin haqqında ən çox danışılan əsərlərindən biri idi və demək olar ki, çap olunduğu vaxtdan əsərdə bəhs edilən real insanlara görə bütün qəzet və jurnallarda bu haqqda müzakirələr aparmışdırlar. Bu əsərdə o, real həyatdakı bəzi dostlarının prototipin yaratmışdır. Bu hadisədən sonra ondan üz döndərən dostları T.Kapote tərəfindən xəyanətə uğradıqlarını demişlər və qarşılığında isə Trumen Kapote yazıçı olaraq hər şeydən istifadə edə biləcəyini və o insanların sadəcə onları əyləndirmək üçün onların dostu olmadığını açıqlamışdır.

Kapote ilə yaxın olan bəzi dostları: Qloriya Vanderbilt, Slim Keyt, Babe Paley onlarım ən utanc verirci, intim sirlərini açıq şəkildə *“Cavablanan Dua”* romanında hər kəsə göstərdiyi üçün onunla tamamən əlaqələrini kəsmişdir. Əsərin təhkiyəçisi Cons deyə bir yazıçıdır və həddindən artıq varlı insanları vəfasız, vicdansız adlandıraraq onların pis üzlərini ortaya çıxarmağa çalışır. Kapote bu romanda Viliam Vudvord (William Woodward)-un həyat yoldaşı Ann tərəfindən öldürülməsini yenidən işıq üzünə çıxararaq diqqətləri üzərinə çəkmişdir. Ann həyat yoldaşını həmin gecə oğru olduğunu zənn edərək tüfənglə onu vurduğunu polislərə demiş və bəraət qazanmışdır. Lakin Kapotenin yazdığı və onun cinayət etiraf etdiyi əsərin bir hissəsi “*La Côte Basque*” 1965-ci ildə çap olunmamışdan öncə artıq bütün mətbuata bu barədə xəbər yayılmış və çap olunmasından bir gün əvvəl Ann özünü öldürmüşdür.

Bundan əlavə romanda hər kəsi şok edən başqa faktları daha doğrusu real həyat dostları Viliam və Babe Paleyin heç kəs tərəfindən bilinməyən sirrlərini açıq şəkildə

əsərdə qeyd etmişdir. Yaxın dostu Viliamın qubernatorun yoldaşı ilə olan gizli münasibətləri və bəzi detalları açıq şəkildə yazdığı üçün bir çox imkanlı dostları bundan şoka düşərək, sarsılaraq T.Kapotedən üz çevrirlər. Dostlarının ondan üz döndərməsi yazıçıya emosional olaraq pis təsir etmişdi.

Kitab həm fantastik, həm də qeyri- fantastik idi və bəzi tənqitçilərin fikrincə kitabın uydurma olan hissəsi əksinə həqiqətə, uydurma olmayan hissəsi isə uydurmaya bənzəyirdi.

Yazıçının yarımçıq əsərinin sonradan bir neçə hissəsi yazılıb, lakin çap edilməyib deyə fikirlər ortaya çıxmağa başladı. Hətta bəzi dostları qalan yarımçıq hissələrin Kapotenin yazdığını və onlara yazıb bitirdiyini dediyini bildirsələr də, bəziləri isə yazıb tamamladığını, lakin sonradan depressiya və içki aludəçiliyi nəticəsində həmin hissələrini məhv etdiyini bildirmişdirlər. Üzərindən illər keçməsinə baxmayaraq, bəzilər Trumen Kapotenin evinə gedib həmin əlyazma və tamamladığı hissələri axtarmış, lakin sonunda heç bir şey tapa bilməmişdirlər.

Yekun olaraq T.Kapotenin qısa nəsr əsərlərindən ibarət və içində həm özü ilə bağlı həm də başqa real insanların real adlarından istifadə etdiyi kolleksiyası 1980- ci ildə *"Buqələmunlar üçün musiqi" ( Music for Chameleons")* adı ilə nəşr olunuşdur Kitabda həmçinin Kapote öz karyerası, keçdirdiyi böhranlarla bağlı məlumatları oxucuları ilə bölüşmüşdür və kitab üç hissədən ibarətdir: birinci hissə altı qısa hekayədən ibarət *"Buqaləmunlar üçün musiqi" ("Music for Chameleons"),* ikinci hissə qeyri-bədii roman olan *"Əldə Oyma Taburlar" (" Handcarved Coffins"),* üçüncü hissə isə söhbətlər şəklində verilmiş qısa hekayələrdən ibarət "*Söhbət Portretləri" (" Conversational Portaits")* adlandırılmışdır. Həmçinin *"Cavablanan Dua" (" Answered Prayers" )* romanının dördüncü hissəsi olan *"Mojave"* adlı hissə *"Buqələmunlar üçün musiqi" ( "Music for Chameleons")* kolleksiyasında ayrıca çap olmuşdur. Kitabında demək olarki hər şey haqqında təsvirlər vardır. Məsələn : Pearl Baileyin T.Kapotenin Kaliforniayadan təyyarə ilə qaçmasına kömək etdiyi, Merilin Monro ilə 1955-ci ildə olan şəxsi, sentimental söhbət və dedi-qodu, məşhurlar haqqında xatirələr, düşüncələr hətta söhbətlər, real həyatdan götürülmüş hekayələr, uşaqlığı haqqında xatirələr, arzular,

cinayət və sairə. Tənqitçilər tərəfindən çox bəyənilməsə də əsər Trumen Kapote üçün özünü həyatını, çətinliklərini, doğrularını və yanlışlarını ifadə edə bildiyi yaxşı əsərləri sırasında idi.

Trumen Kapotenin kariyerasının yeni başladığı zamanlarda iki bir-birinə əks ədəbi formadan – realizm və romantika ədəbi formalarından istifadə etdiyini görə bilərik.

Yaradıcılığı boyu bütün real həyat detallarına toxunan Trumen Kapote ədəbi və ritorik vəsitələrlə oxuculara nəyi onlara göstərdiyini başa salmağa çalışırdı. O dövr varlıların heç nəyi düşünməməsi və yoxsulların necə çətinliklər çəkdiyini, hansı yollarla sağ qalmağa çalışmasını, ən əsası hər bir detalı dərinliklərinə qədər araşdırıb oxuculara düzgün formada çatdırmağa çalışırdı. Onun əsərlərini ilk baxışdan anlamaq çətin olsa da, lakin daha dərinə getdikcə artıq anlamaq olurdu. Oxucularına ən əsas mesajı isə həyatı doyunca yaşamağın çox vacib olduğu çatdırmaq istəyirdi çünki hər şey hər an dəyişə bilərdi və geriyə dönüb baxmağın heç bir mənası olmadığını əksinə daha da irəliyə baxaraq yaşamaq lazım olduğunu anlatmağa çalışırdı.

## II FƏSİL: "BAŞQA SƏSLƏR, BAŞQA OTAQLAR" ROMANININ T.KAPOTENİN YARADICILIĞINDA YERİ

### 2.1. "Başqa səslər, başqa otaqlar" əsərində müəllif individuallığının spesifikası

Dünya ədəbiyatında tanınmış Trumen Kapote yaradıcılığında və kariyerasında dəyişiklik edərək, 1944-cü il ərzində The New Yorker qəzetindəki işindən qovulduqdan sonra bütün diqqətini tamamən yazıçılığa vermiş və Monroeville qayıdaraq yeni əsərlər yazmağa başlamışdır. Həmin zamanlar üzərində işlədiyi və mövzusu ailəsinə qarşı çıxaraq aşağı səviyyəli yəhudi qızla evlənən 17 yaşlı məşhur və imkanlı oğlandan bəhs edən "*Yay keçir" ("Summer Crossing")* əsərini yarımçıq dayandırmış və *"Başqa Səslər, Başqa Otaqlar" (Other Voices, Other Rooms")* romanını yazmağa başlamış və iki il ərzində əsəri yazıb bitirmişdir. 1948-ci ildə özünəməxsus mövzusu olan *"Başqa səslər, Başqa otaqlar" (" Other Voices, Other Rooms")* əsərini nəşr etdirdi və əsər New York Times-ın ən çox satılanlar listinə daxil oldu. *"Başqa Səslər, Başqa Otaqlar"* romanı böyük uğur qazanmış yarı avtobioqrafik elementlərlə zəngin romandır və həmçinin həm nəşrinin mükəmməliyinə görə , həm də kitabın arxa üzündəki şəkilə görə həmin zamanlar ölkədə diqqət mərkəzində olmuşdur. Trumen Kapote həmin zamanlar şər qüvvələrin gücünə və tənəzzül mövzularına və yaxud sadəcə zəiflik mövzularına heyran idi. Bəzi romançılardan fərqli olaraq realizm adlanan mövzularla maraqlanmırdı çünki reallıq onun üçün konkret yox müəmmalı, sirlərlə dolu, emosional və poetik idi. Bu səbəbdən "*Başqa Səslər, Başqa Otaqlar*" əsərinin bəzi hissələrində tam olaraq nələr olduğunu bilmək mümkün deyil. Lakin əsəri analiz edən zaman yazıçının tam olaraq yanlızlıq, özünə qapanma və cinsi məsələlərdən intertekstual şəkildə istifadə etdiyini görmək mümkündür. Trumen Kapote bir neçə əsərində cinsi mövzulara toxunaraq cəmiyyət tərəfindən qəbul olunmayan homoseksual şəxslər haqqında söz açsa da ən əsas və dərindən təhlil edərək, açıq şəkildə homoseksual şəxslərdən bəhs etdiyi əsəri "*Başqa Səslər, Başqa Otaqlar" ( "Other Voices, Other Rooms" )* əsəridir.

Yazıçının bu romanı yazmasının qəribə bir hekayəsi də vardır ki, o meşədə olarkən başqa bir əsər üzərində çalışarkən həmin əlyazmaları bir kənarda saxlayıb iki il müddətində anidən ağlına gələn mövzu ilə bağlı *"Başqa səslər, Başqa otaqlar"* romanını qələmə almışdır. İlk hissəsi ən uzun olmaqla, əsər üç hissəyə bölünür və hekayəsi sevginin fərqli formalarını öyrənən gənc Coel Harrison haqqındadır. İlk hissəsində Coel Noon City'ə atasının olduğu evə gəlməsi, ora gələnə qədər yolda qarşılaşdığı insanlar və yerlər, çətin yollar haqqında, evdə ona qəribə gələn insanlarla tanış olması və özü yaşında iki bir-birindən tamamən fərqli bacılarla tanış olması haqqında bəhs edilir. İkinci hissəsində Randolfu daha yaxından tanıması, İdabellə daha çox vaxt keçirməsi, atasının hansı vəziyyətdə olduğunu öyrənməsi, Zu ilə xeyli söhbət etmələri haqqında bəhs edilir. Kitabın üçüncü hissəsində isə İdabellə evdən uzağa qaçmış Coelin İdabeli itirməsi və soyuqda xəstələnməsi, Randolfun ona qulluq etməsi barəsində bəhs edilir.

Əsərin qısa məzmunu belədir: yeni yetkinlik yaşına çatmış Coel Harrison adlı 13 yaşlı, yanlız, gənc oğlan anasını itirdikdən sonra xalası ilə birgə yaşayır və bir gün aldığı məktublar sayəsində və o evdən çıxaraq artıq öz gələcəyi ilə bağlı, atası ilə bağlı qurduğu xəyallar sayəsində onu doğulan zaman tərk edən atasının yanına, Yeni Orleanadan Noon City'ə göndərilir. Yolu çətinliklə və istinin dəhşətli olduğu və ətrafın çöllükdən başqa heç nə olmayan yollardan keçərək gəlir və yolda bir neçə insanlar görüb, bir kiçik kafeyə gedib, atasının adını deyərək evin yolun dəqiqləşdirməyə çalışır və bir neçə qəribə insanlarla rastlaşır, sonda Eminin onun üçün göndərdiyi yaşlı adam Cesus Feverin atı ilə birgə evdə doğru yola düşür. Yolda gələrkən iki bir-birinin əksi bacılarla rastlaşır və nəhayət evə gəlib çıxır. Tərkedilmiş, geniş bir sahədə olan evə çatanda atası əvəzinə onu acıqlı, əsəbi ögey anası Emi, uzaqdan qohum olan Randolf və evdə xidmətçilik edən qaradərili Zu ilə qarşılaşır. Həmçinin evin ən üst pəncərəsindən baxan ruh kimi, qəribə bir qadın görür. Gəldiyi günün səhərisi otağına girən quşu tutmaq üçün gələn Eminin səsinə oyanır. Sonra mətbəxdə Zu ilə tanış olur, lakin hər nə qədər ətrafa və sanki torpağa batacaqmış kimi olan, böyük evə baxsa da atasını görmür və heç kim atası ilə bağlı sual verəndə ona cavab vermirdi. Coelin israrına baxmayaraq atasının harada

olduğu sirr kimi qalır, nə qədər onunla bağlı sual versə də heç kim cavab vermir və Emi ilə Randolfun onu atası ilə tanış etmək istəməməsi Coeli çox təəccübləndirir. Bütün bu qeyri- müəyyənlik Coelin təxəyüllündə fantastik xəyallar yaradır. Nəhayət Coel atası ilə tanış olanda onun iflic və ünsiyyət qura bilməməsini anlayanda çox kədərlənir. Atası Edvard sadəcə əlində olan qırmızı topu atır və danışmadan baxır. Atasınına kitablar oxuyur və yeməyini yedizdirir. Bu səbəbdən o, öz kiçik dünyasında sevgi və nəvazişi başqalarından axtarmağa məcbur qalır. Bir gün Randolf atasının hekayəsini ona danışır və məlum olur ki, Edvardı Randolf güllə ilə vurmuş və o andan sonra Edvard yataq xəstəsi olmuş və Emi isə Edvardla evlənərək o evdə rahat yaşamaq şəraiti tapmışdır. Eminin Coelin orada qalmasını istəməsinin tək səbəbi atasına yəni Edvarda sonsuz qulluq edib qayğısına qalması idi və atasının adından Coelin gəlməsi üçün məktubların Randolfun yazdığı bəlli olur. Evdə qalarkən Zu öz hekayəsini, babasına baxmaq adına gəldiyi və xidmətçilik etdiyi, başına gələn dəhşətli hadisəni və sairə Coellə bölüşür. Bundan başqa Bacısı Florabeldən tamamən fərqli , oğlan kimi geyinən və güclü olan İdabel ilə Coel əvvəllər bir-birlərin sevməsələr də sonrada yola gedir və dost olurlar. Birlikdə bir neçə yerlərə gedib gəzərək günlərini keçirirdilər. Coel hər gün Randolfun söhbətlərinə, danışıqlarına qulaq asır və artıq manupulyasiyaya uğramış Coel artıq ondan xoşu gəlməyə başlamışdır. Randolf Coelin gözündə zərif və sanki qadın gözəlliyi varmış biri kimi təsvir olunur. Bir gün bacısının burnunu qırması və onu döyməsinə görə evdən qaçan İdabel Coelin yanına gələrək birlikdə qaçmaqlarını təklif edir, evdən və bu sıxıcı həyatdan bezmiş olan Coel onunla razılaşır və birlikdə qaçırlar. Şəhərdən kənara gedərək orda bəzi əyləncəli şoulara baxırlar və orada balaca boy bir qadınla Visteria ilə tanış olurlar. İdabel onu görən kimi ona aşiq olur, lakin kədərli hekayəsi olan bu xanımın isə Coeldə gözü olur və Coelə bəzi seksual təkliflər edir. Güclü fırtınanın başlaması ilə Coel İdabeli itirir və canını Visteriadan qutarır. İdabeli nə qədər axtarsa da onu heç yerdə tapa bilmir və fırtınadan təsirlənərək xəstəliyə tutulur. Həftələrcə yatan Coeli Randolf sağaldır. Coel oyananda Randolfun ona çox əsəbləşəcəyini düşünür, lakin tam əksi Randolf çox mehriban görünürdü. Bir müddət əvvəl babası Cesus öldüyü üçün artıq evi tərk edən Zunun da qayıdıb orada

olduğunu görən Coel həm sevinir, həm də təcüblənir, lakin Zu hər zamanki kimi gülüb danışmırdı. O, yolda başına gələnləri Coelə danışır və dəhşətə gələn Coel ona artıq danışmamasını deyərək qışqırır. Randolf gələrək Coelin bir vaxtlar evlərinə qonaq gəldiyi və tanıdığı Balaca Sanşayn deyə tənha bir oteldə qalan adamın onları ora dəvət etdiyini deyir, lakin ora çatanda Randolfun yalan dediyini əslində Balaca Sanşaynın onları qonaq çağırmadığı bəlli olur. Həmin güm Randolf xeyli içki içir, Coel isə hələ də tam sağalmadığı üçün yatmağa çalışan an bir səs gəlir və baxırlar ki, at səhlivliklə asılı vəziyyətdə qalıb ölüb, daha sonra səhəri gün Randolfla evə qayıdan Coel son ümidi olan xalasının onu ziyarətə gəldiyini görür. Lakin artıq əvvəlki uşaq olmayan və öz cinsiyyətini qəbul edən Coel Randolfla qalmağı daha üstün tutur. Əsərin sonunda Joelin pəncərədə gördüyü kostyumlu qadının əslində Randolf olduğunu öyrənir.

Müxtəlif mövzu və elementlərlə zəngin olan Amerika ədəbiyyatı qədim dövr ədəbiyyatından müsair dövr ədəbiyyatına qədər müxtəlif formada qadın və kişi gözəlliyini təcəssüm etmiş və həm gerçək həm də fantastik elemenlərlə birgə əsərlərini zənginləşdirmişdir. Lakin homoseksuallıq mövzusunun normativlərin içərisində qeyri-normativ kimi işlədilməsi çətin və risk tələb edən mövzulardan olmuşdur. Amerika ədəbiyyatında qədimdən, eyni cinsdən olanların bir-birinə olan sevgisindən qısa şəkildə bəhs edilmiş, lakin tam olaraq açıq formada verilməmiş və Amerika ədəbiyyatında geylərin, homoseksualların haqqında dərindən bəhs edən 1870-ci ildə Bayard Taylor tərəfindən yazılmış "Cozef və dostu" (Joseph and his friend") adlı roman ilk Amerikan gey roman kimi bilinir. Əsərdə əsas personaj Cozef imkanlı bir qadınla evlənməmişdən öncə onun dostu oğlana aşiq olur. Əsər həmçinin eyni cins sevgisi haqqlarını qorumağa çalışır. Bütün bunları nəzərə alaraq Trumen Kapotenin özünün də homoseksual olduğunu və demək olar ki, hər bir əsərində bu mövzuya toxunduğunu və belə insanların haqqlarını müdafiə etdiyini bilərək, ən açıq şəkildə öz cinsiyyətini tapmağa çalışan insanlardan, cəmiyyətin onlara qarşı necə nifrət dolu baxışlarından, özlərini cəmiyyətin bir üzvü kimi qəbul etdirmək istəmələrindən və özünü bu səbəbdən dolayı hər kəsdən kənarlaşdıran personajlardan bəhs etdiyi "*Başqa Səslər, Başqa Otaqlar*" *( Other Voices, Other Rooms")* əsərini

1940-cı illərin bütün tənqidlərini öncədən nəzərə alaraq yazılmış mükəmməl bir əsər adlandırmaq olar. Əsərdə indiyə qədər yazılmış homoseksual mövzulardan fərqli və əsasən oxucular tərəfindən sevilən bir nüans var idi. Qədim dövrdən yazılan hətta T.Kapotedən sonrakı dövrlərdə belə yazılan eyni cinslərin bir-birinə qarşı olan sevgisindən bəhs edən əsərlərdə mütləq sonda həmin personajların ya tükənmişlik hissini, ya ölümünü ya da yaşam səbəbi olmaması üçün intiharını görmüş və oxumuşuq, lakin "*Başqa səslər, başqa otaqlar*" romanında heç bir homoseksual personajın həyatını sonlandırması, başına qorxunc hadisələr gəlməsi, ölüm kimi şeylərə rast gəlinmir. Təbii ki, özünü hər kəsdən kənarlaşdırma, qaranlıq düşüncələrə qapılma, başqaları tərəfindən sevilməmə bütün homoseksual əsərlərdə olduğu kimi burda da var. Lakin sonda ümid də var, yazıçı hər şeyin başlanğıcı və sonu olduğu kimi bütün problemlərin də bir sonu olduğunu göstərməyə çalışmışdır. Trumen Kapote həmin dövr insanların çətinliklərini, üstəlik cəmiyyət tərəfindən qəbul edilməyən insanların və qaradərili insanların yaşayışını və daim aşağı səviyyədə olub kiməsə xidmət etməsini çox gözəl məharətlə işləyərək oxuculara təqdim etmişdir.

*"Başqa səslər, Başqa otaqlar"* romanının bir çox təəccüblü elementlərinin uğurlu şəkildə ümumən birləşməsinin səbəblərindən biri də Coelin özünü də bir qədər qeyri-müəyyən şəxs olması və hekayənin Coelin gözü ilə ifadə edilməsidir. Əsərdə rolun dəyişdirilməsi, gender müəyyənliyi və sərt təzadlı cənub ideallarına qarşı cinsəllik və sevgi ilə bağlı olan riskin izahıdır. Əsər T.Kapotenin öz gəncliyini inkişaf etdirməsində, günahsız və özünü kəşf edən Coel obrazında katarsis rolunu oynayır, o, həqiqətən kitabın mesajını daşıyan səs olan Randolf personajında öz qoca, azad şəxsiyyətinə çevrilir.

Romanın başlayandan göründüyü kimi Coel daha yeniyetmə olmasına baxmayaraq özünü kəşf etməyə, olduğu kimi özünü qəbullanmağı öyrənir. Coel ilk ora gəldikdə çox arıq, saçları uzun sanki qız kimi bir bədəni və gözəlliyi vardı. Bu səbəbdən romanda hekayə irəlilədikcə Coeli tanımadığı və ona yad olan bu insanların arasında öz bədənindən utanmağa başlayır və onların yanında rahat ola bilmir. Noon City'ə gəldiyi gündən artıq insanlar ona baxaraq necə oğlana bənzəməməsi ilə bağlı sözlər

deyirdi. Onu ilk görüb belə düşünənlərdən biri isə Coeli evinə gedən yol ilə eyni istiqamətdə sürücülük edən Səm Radklif idi:

"*He had his notion of what a "real" boy should look like, and somehow offended them. He was too pretty, too delicate and fair-skinned; each of his features was shaped with a sensitive accuracy, and a girlish tenderness softened his eyes, which were brown and very large.*" [15, s.14].

( Onun təsəvvüründə "əsl" oğlanın necə görünməsi ilə bağlı bir düşüncə vardı, və bu oğlan ona uyğun gəlmirdi. O, çox gözəl, çox incə, çox açıq- dərili idi; onun hər bir görünüşü sanki həssas bir dəqiqliklə formalaşmışdı, iri qəhvə rəngli gözləri qış uşaqlarına oxşayan bir incəlik vardı.) (L.Ə)

Atası ilə tanışacağı günü xəyal edib, atasının onu uzun, yaraşıqlı, güclü, ağıllı görünüşü olmadığı deyərək onu istəməyəcəyini düşünür. Lakin bir müddət vaxt keçdikcə, qohum olan Randolfu yaxından tanıdıqca, yalnız olmadığını və onun kimi olan və düşünən başqalarının da olduğunu bilərək artıq öz kimliyini və özünü olduğu kimi qəbul etməyi öyrənir. Randolf əsərdə hər zaman içki içən, yaşına görə çox cavan görünən və dərisi bir qadın dərisi qədər tüksüz, qırışsız görününən və yaraşıqlı biri kimi təsvir olunur. Coel Randolfu yeni tanımağa başladığı zamanlar onun haqqında olan düşüncələri belə idi:

" *As he puckered his lips to blow a smoke ring, the pattern of his talcumed face was suddenly complete: it seemed composed now of nothing but circles: though not fat, it was round as a coin, smooth and hairless; two discs of rough pink colored his cheeks, and his nose had a broken look, as if once punched by strong angry first; curly, very blond, his fine hair fell in childish yellow ringlets across his forehead, and his wide-set, womanly eyes were like sky-blue marbles.*" [15, s.77].

( O, tüstü halqasını üfürmək üçün dodaqlarını büzdükdə, pudralı üzünü birdən tamamlandı: yalnız dairədən ibarət olan bir kimi görünürdü: kök olmasa da, dəmir pul kimi yuvarlaq, hamar və tüksüz idi; yanaqlarını iki kobud çəhrayı disk rəngləndirirdi, onun burnu isə sanki bir zamanlar sərt qəzəbi bir yumruq dəymiş kimi sınıq görünürdü; çox sarı, qıvırcıq ipək saçları uşaq saçı kimi halqa formasında alnına tökülmüşdü, onun geniş, qadına bənzər gözləri səma mavisi mərmər kimi idi.) (L.Ə)

Əsərdə Coelin olduğu vəziyyətlərdən Randolfun da keçdiyi açıq şəkildə görünür və zaman keçdikcə Coelin Randolfu bəyəndiyini düşünür. Sonda Coelin evə ilk gəldiyi gün gördüyü və heç kimin o haqda heçnə demədiyi, yuxarı pəncərədən Coelə baxan qadın əslində Randolf imiş və Randolf ən axırda o geyimi geyib maskasını taxaraq əslində bir növ öz şəxsiyyətini, homoseksuallağını qəbul edərək Coelə göstərdi.

Həmçinin əsərdə İdabel Tompkins adlı özünü oğlan kimi aparan bir qız da vardı. Hər kəsin özünü oğlan kimi aparması, rəftar etməsi, geyinməsinə görə İdabeldən xoşları gəlmirdi:

" *Well, it wasn't no revelation to me cause I always knew she was a freak, no ma'am, never saw that Idabel Thompkins in a dress yet.*" [15, s.29].

( Beləki, mənim üçün yeni bir şey deyildi bu çünki mən həmişə onun qəribə olduğun bilirdim, yox xanım, İdabel Tompkinsi hələ heç bir donda görmədim.) (L.Ə)

Hətta bir dəfə kafe sahibi xanım Roberta İdabelin oğlan kimi davranışından əsəbləşərək ona bu sözləri demişdir:

" *.. March now... and don't come back till you put on some decent female clothes*" [15, s.33].

(.. Çıx get… və bir daha doğru-düzgün qadın paltarı geyinməyincə geri qayıtma.) (L.Ə)

İlk öncə İdabel Coellə yola getməsələr də sonradan dost olurlar, hətta bir hissədə Coelin onu yanağından öpdüyü, İdabelin isə onu itələdiyi səhnələri də var. Birlikdə problemlərini bölüşən bu iki dost evdən qaçdıqları zaman İdabel öz kimliyini və şəxsiyyətini bir qadına aşiq olduqdan sonra kəşf edir və beləliklə hər kəsin onu narahat etməsinə baxmayaraq İdabel öz istəklərindən əl çəkmir və kimliyini qəbul edir. Bundan əlavə, romanda o zamanlar qaradərili insanlara qarşı olan nifrətlə də bağlı olan məsələyə yer verilmişdir. Emi və Randolfun evində qulluqçu kimi işləyən Missouri qısaca Zu və babası Cesus birlikdə bu ailəyə xidmət edirdilər, lakin Zu buraya babası yaşlı olduğu və öldüyü zaman tək olması deyə gəlmiş və 13 il o evdə qalmışdır. Zunun başına gələnlər isə dəhşətli hadisələr isə qaradərillilərə qarşı olan nifrət kimi verilmişdir və Zunun ilk həyat yoldaşından ona travmalar xatirə qalmış və əsərin sonuna yaxın Cesus Fever öldükdən sonra nəhayət orada ayrılan Zunun sonda

başına gəlmiş dəhşətli hadisə: bir neçə adamın ona təcavüz etməsi ilə geri döndüyü görünür. Ağdərili insanların həyat çətinliklərini ən əsası cəmiyyət tərəfindən qəbul edilməyən homoseksual ağdərili insanların çəkdiyi əziyyətlər, cəmiyətin üzvlərinin onlara qəribə baxışlarından əlavə Afrikan Amerikan qara dərililərə qarşı olan nifrət və əziyyəti də Zu personajının aldığı travmalarla göstərməyə çalışmış, həmçinin, həmin dövr cəmiyyətin təcavüz mövzusuna səssiz qalması ətrafında olan söhbətləri də üzə çıxarmış və bunu Zunun Coelə başına gələnləri danışdığı zaman Coelin dinləməmək istəməməsi ilə cəmiyyətin bu mövzulara göz yumduğunu eyniləşdirmişdir.

"*Başqa Səslər, Başqa Otaqlar" ( "Other Voices, Other Rooms*") əsərinə müxtəlif formada izahlar vermək olar, lakin ən əsas yazıçın insanlara hər şeyin başlanğıc hekayəsini verərək, o dövrlər Amerika ədəbiyyatında göstərilən günahsız oğlanların uzun təsvirini Coelin simasında vermişdir. Başqa əsərlərdəki personajlar kimi Coel də evini tərk edərək daha gözəl həyatın, onu dəstəkləyən və hər zaman yanında ola biləcək bir atanın, daha yaxşı yaşayışın axtarışı ilə getmişdir. Bu səbəbdən əsər davam etdikdə Coelin uşaqlığını, məsumluğunu, saf düşüncələrini geridə qoyaraq yetkinliyə və şəxsiyyətinin inkişafına doğru irəliləməsini görmək olar. Romanın əsas mövzusu olaraq yeni dövr ədəbiyyatın yaranmasından əvvəl çox nadir hallarda yazılan homoseksuallıqdır. Müasir dövr ədəbiyyatından fərqli olaraq keçmiş dövr ədəbiyyatda bu cür mövzular tam olaraq açıq şəkildə verilmirdi, lakin Trumen Kapote "*Başqa otaqlar, Başqa səslər*" romanında bir çoxlarından fərqli olaraq Coelin qəribə taleyi ilə bağlı bir sıra qəribə epizodlardan və Randolfun cinsi vəziyyəti ilə bağlı bir sıra yuxu və şəkillərdən başqa maskalanma verilməmiş və açıq şəkildə bəhs edilmişdir.

T.Kapote əsərdə Coel ilə bir çox oxşarlıqları paylaşmasına baxmayaraq, həmişə əsərin avtobioqrafik olduğunu inkar edirdi, məsələn, hər ikisi Yeni Orleanda doğulub və ata qayğısı görməyiblər, hər ikisi qohumlarının yanına yaşamaq üçün göndərilib və hər ikisi analarının soyadların götürüblər və sairə. Lakin bunlardan əlavə Trumen Kapote bir müsahibəsində əsəri yenidən oxuduğu zaman Coeli sanki öz gənclik hekayəsini oxuyurmuş kimi hiss etdiyini deyərək əsərdə avtobioqrafik

elementlər olduğunu bir növ təsdiqləmiş hesab olunur və Coellə oxşarlığının əsas səbəbi isə hər ikisinin cinsi kimliklərini qəbul etmək yolunda keçdikləri çətinliklərdən və sonda öz cinsi kimliklərini qəbul edərək cəmiyyətin anormal baxdığı cinsiyyətlə normal formada yaşamağa çalışmaqlarıdır. Həmçinin yazıçının həyatı ilə yaxından tanış olduğumuz zaman əsərdə uşaqlıq dostlarının, bəzi məkanları, hadisələrin prototipini təsvir edərək öz uşaqlıq hekayəsinin bir növ simvolik cəhətdən nümayiş etdirməyə çalışdığını aydın şəkikdə görmək mümkündür.

Gənc müəllifin istənilməyən bir uşaq kimi yaşadığı və nəticədə homoseksuallığını qəbul etdiyi həyatı haqqında açıq şəkildə *"Başqa səslər, Başqa otaqlar"* əsərində məlumat verir. Əsərdə Coel personajı yeni tanışdığı insanlar tərəfindən həm işlədilən həm də formalaşdırılan məsum bir uşaqdır. Romanda Coeldən ilk bəhs edilən zaman məsumluğundan əlavə gələcəyə ümid dolu baxışı, qıza bənzər görünüşü və sairə formada təsvir olunur, buna baxmayaraq, onun qəribə səyahəti davam etdikcə onun həm ümidi, həm gələcəyə dair düşüncələri məsumluğu ilə birgə solub gedir. Coelin əsərdə saf və məsum bir yenityetmə olduğunu göstərən səhnələrdən biri də oğlan kimi hərəkət edən dostu İdabelin yeniyetmələrin anlayacağı cinsi mövzu ilə bağlı bir zarafat deyən zaman Coel zarafatı anlamamışdı və bu cür söhbətlər hələ tam yetişməmiş Coelin uşaqlıqdan yeniyetməliyə doğru olan inkişaf prossesini daha da sürətləndirmişdir. Yeniyetməlik və sevgi ilə bağlı düşüncələrin inkişafını isə Randolf ona anlatdığı təhlükəli üç tərəfli sevgi hekayəsindən sonra daha da inkişaf etmişdir. Randolf ona "insan təbiətində olan hər növ sevgi təbii və gözəldir və yalnız iki üzlülər insanı sevdiyi şeyə görə məsul tuturlar" demişdir.

" *The brain may take advice, but not the heart, and love, having no geography, knows no boundaries: weight and sink it deep, no matter, it will rise and find the surface: and why not? Any love is natural and beautiful that lies within a person's nature; only hypocrites would hold a man responsible for what he loves, emotional illiterates and those of righteous envy, who in their agitated concern, mistake so frequently the arrow pointing to heaven for the one that leads to hell."* [16, s.140]

(Ağıl məsləhət ala bilər amma ürək yox; sevginin coğrafiyası yoxdu və heç bir sərhəd tanımır, nə qədər ağırlıq ilə aşağı batırsan da fərqi yoxdur yenə də qalxıb öz

səthini tapacaq və niyə də yox ?, insan təbiətində olan hər növ sevgi təbii və gözəldir və yanlız iki üzlülər insanı sevdiyi şeyə görə məsul tuturlar, təsvişli narahatlıq içində olan emosional savadsız və saleh paxıllar isə cəhənnəmə doğru getməli olan oxu tez-tez cənnətə doğru istiqamətlə səhv salırlar.) (L.Ə)

Randolfun dediyi bu sözlərlə həmin dövrdə yaşamış olan eyni cinsli şəxslərin bir-birlərinə qarşı duyduğu hisslərinə necə nifrətlə qarşılandığını, ətrafdakı insanların və cəmiyyətin eyni cins sevgisinə necə qarşı çıxaraq, insanların özünə qapanmalarını və depressiyaya düşmələrinə səbəb olduğunu bildirmişdir. Cəmiyyəti isə sevginin məkanı olmadığını bildirərək hər növ sevginin gözəl olduğunu deyərək onun kimi olan insanların səsi kimi Randold personajının dilindən verilmişdir.

Beləliklə, əsərin əvvəlində bəhs edildiyi kimi şəxiyyətini kəşf etmək və atasının axtarışı ilə tanımadığı insanların yanına gələn Coel atası ilə bağlı xəyalları onu xəyal qırıqlığına saldıqdan sonra onu qorxudan bu dünyada artıq özünə bir yer tapmağa çalışırdı. Qadınlarla əhatə olunmuş bir dünyada böyüyən və daha sonra kişilərin cəmiyyəti olan bir yerə gəlmək onu qorxutmuşdu. Əksəriyyət insanları Coelin seçdiyi və bununla kifayətləndiyi şəxsiyyətini yoldan azma kimi düşünürdülər.

Cəmiyyətin eyni cinsdən olan insanların bir-birinə olan sevgisinə anormal baxmasını nəzərə alan Trumen Kapote gey və lezbiyanların cinsi özünü kəşfinə sosial cəhətdən anlaşılmayacağını bilərək əsərdə həmin insanların necə düşünməsini, onlara tərəf durmayan insanlardan qaçma istəyi və sairə başqa bir neçə nümunə əsasında hər birini təsvir etmişdir. Romanın sonuna yaxın İdabel ona qarşı gələn ailəsi ilə dava edərək Coelə birlikdə qaçmasını təklif etməsi və getdikləri karnavalda İdabelin bir qadına aşiq olması, lakin qadının onum qəribə olmasını düşünməsi və əksinə Coelə qarşı istək göstərməsi əslində bir növ cəmiyyətin eyni cinsdən olanların sevgisinə qarşı olan düşüncə tərzini göstərmişdir. İdabelin bir qadına olan bu sevgisini və həmin anlıq keçirdiyi xoşbəxtliyini görən Coelə eyni cinsdən olan insanların sevgisini anlamağa daha çox kömək etdi. T.Kapote eyni ilə Randolfun da gey biri olaraq özünü hər kəsdən təcrid edərək Landing-də yaşamasını və hər kəsə açıq şəkildə gey kimi xoşbəxt həyat sürənlərə olan qəzəbini və bütün bunlara səbəb olan hekayəsindən də bəhs edilmişdir. Randolf Pepi adlı biri ilə tanışmayana qədər Dolores adlı bir qadınla

evlilik həyatı yaşayırdı və yoldaşından hətta özündən belə gizlədiyi cinsi hisslərini artıq Pepini gördükdən sonra üzə çıxmışdı. Romanın əsas mövzusu olan cinsi hisslərin özünün həqiqi ifadəsi kimi cəmiyyət və sosial normalara uyğun olmayan bir şey kimi ifadə edirdi. Nəticə etibari ilə onun filosofik düşüncələri başqalarının nifrət və qərəzindən qoruya bilmədi, belə ki, Edvard və Pepi artıq onun hisslərini bildikdən sonra ona nifrət və təhqir edirdilər. Bir gün Pepi Doloreslə qaçdıqdan sonra Randolf əsəbinin səbəbi olaraq xəyali bir düşüncə ilə Edvardı güllə ilə arxadan vurur. Pepinin Randolfa etdiyi bu qədər şeylərdən sonra Randolf oxumayacağını bildiyi halda yenə də Pepiyə məktublar yazırdı.

Kapote əsərdə Randolf və İdabeli homoseksual həyat yaşamaq istəyən və problemli modellər kimi təsvir edirdi, çünki nəticə etibarı ilə edilən bütün cəhdlərdən sonra İdabel ailəsi tərəfindən uzağa göndərilir və Randolf isə özünü hər kəsdən uzaqlaşdırırdı. Buna baxmayaraq, Coelin homoseksuallığını qəbul etməsinin nə dərəcədə onun öz fikri olduğu biraz müəmmalı olur, çünki oraya gəldiyi gündən Randolfun ən başından bəri Coeli manupulyasiya etdiyi açıq şəkildə təsvir olunur.

Bəzi yazıçıların əsərlərində öz həyat hadisələri haqqında bəhs etməsi nadir hadisələrdəndir və Trumen Kapote nə qədər keçmiş həyat hadisələri əvəzinə necə biri olacağı haqqında yazmaq istəsə də, əsərlərindəki personajların tərk edilmiş, başqalarından təcrid olunmuş, aid olduğu yer, hər zaman sevgi axtaran personajlar kimi təsvir etmişdir. "*Başqa səslər, Başqa otaqlar*" əsərində də bu özünü göstərir və oxuculara öz keçmiş həyatından bəhs edən bir istinad kimi də düşünmək olar. Həmçinin bu əsər T.Kapotenin ilk nəşr etdirdiyi və Amerika ədəbiyyatdına əsas tanıdan əsərlərdən biri idi. Əsərdə göstərilən qarışıq təsvirlər, məhv olmaq üzrə olan bir ev, bağ bitkiləri və başqa vacib elementlər Trumen Kapotenin oxuculara çöllükdə yaşayan və içindən məhv olan bir ailənin təsvirini konkret bir ideya kimi təsvir etmişdi. Təhkiyəçinin Coelin bütün çətinliklərini göstərərək əslində Kapotenin də anası ilə yaşadığı eyni problemlər, anasının ondan normal oğlan olması istəyini göstərir. Təhkiyəçi yazıçıya çox oxşar idi, Kapote əslində qorxulu, qaranlıq bir həyat yaşamırdı və "*Başqa Səslər*" dedikdə oxucularına böyüməyin o qədər də qorxulu

olmadığını, hər zaman bir çıxış yolu olduğunu və bizim özümüzün o yolu tapıb onunla razılaşmalı olduğumuzu çatdırmaq istəyirdi.

Amerika ədəbiyyatı 1930-1940cı illərdə sosial şüurluluqla idarə olunurdu və o zamanlar bədii ədəbiyyatda sosial və naturalist nəsrlərə üstünlük verilirdi. İkinci dünya müharibəsindən sonra *"Başqa səslər, Başqa otaqlar" ( "Other Voices, Other Rooms")* nəşr olunduğu zaman əsas mövzu və düşüncədən kənara çıxdığı üçün tənqid olunurdu. O zamanlar gənc yazara məşhurluq gətirən roman simvolik, qrotesk, narsisistik, estetik və sayirə kimi elementləri özündə göstərməsi ilə məşhur idi. Bəzi tənqidçilər T. Kapotenin cənub romantizmlərinin üzvü kimi və cənub yazar olduğunu deyərək, cənub qotik elementlərdən demək olar ki çox az istifadə etdiyini, daha doğrusu qotik üslübün ən məşhur temaları olan siniflərə bölünmə və onların məhvi, dini inancların məhv olması, ailənin içdən çürüməsi kimi və sayirə elementlərdən çox az istifadə edərək, ondan kənar durmasını qeyd etmişlər. Lakin onu da inkar etmək olmazki *"Başqa səslər, Başqa otaqlar"* romanı özündə Cənub qotik üslüba aiddir. Əsər özündə qotizimin cənub personajlarını və əraziləri istifadə edərək qotik ədəbiyyatın şübhə, qorxu, qəribə insanlar, psixoloji və simvolik elementlərini əks etdirir. [28]

T. Kapote əsərdə qotika və sentimentalizmi birləşdirir. Nəticə personajlara rəğbət doğuran və hər cür sevginin qiymətləndirilməsini təklif edən hibrid qotik sentimentalizmdir. "Cənub qotikası" etiketi çox təsadüfi istifadə olunub və bu yanaşma romanın sentimental elementlərini gizlədir. Personajlar yanlız qəribə və qrotesk kimi təsvir olunmur, həmçinin simpatik və acınacaqlı göstərilir.

"*Başqa otaqlar, Başqa səslər*" ( *"Other Voices, Other Rooms"* ) əsərini dəqiqliklə analiz etdikdə yazıçının insan və heyvan xaraketlərinin bir-birinə çox oxşamasından və bəzən ayırmağın çətin olduğunu bildirərək heyvan və insan simvolunu paralel şəkildə vermişdir. Əsərdə bir çox heyvanları insanlarla həm görünüş həm də düşüncə və simvol etdiyi məna baxımından eyniləşdirirlər. İnsanlardan fərqli olaraq cazibə qüvəsinə qarşı gələ bildikləri üçün quşlar azadlığın simvolu kimi bütün ədəbiyyat nümunələrində göstərilir, lakin müxtəlif mövzulara toxunan əsərdə quşların öldürülməsi, özünü pəncərəyə çırpmasını hadisənini ilk hissələrdə Coelin oraya

gəldiyi gecənin ilk səhəri Eminin otağa girən quşun arxası ilə düşərək onu bir küncə sıxışdırması səhnəsini göstərilmişdir. Romanda azadlığın simvolu olan quşların bu formada verilməsi oradakı azadlıq anlayışının çox az olması və yaxud olmaması kimi anlamaq olar. Romanda həmçinin Randolfun isə lələklərdən kleylə karton quş yaratmasını və diqqətlə incə detaylara qədər fikir verib, sanki yenidən quşu canlandırırmış kimi hazırlayırdı və onun hazırladığı quşlar real quşlardan fərqli olaraq uça bilmirdilər. Randolf realdan fərqli olaraq saxta quşları idarə edə bilir və bu gerçək sevgi ilə Randolfun yalanlarla yanında saxladığı Emi, Ed, Coelin sanki azadlıqlarını məhdudlaşdıraraq onları saxta yollarla yanında yaşamaları kimi simvolizə edilir. Quşların digər bir səhnədə istifadəsini Zunun toyuqları qorumaq üçün şahinləri vurması təsvir edilir və Zunun qorxduğu keçmiş həyat yoldaşının hər an geri gələ biləcəyi və təhlükədən sadəcə onun xəbərdar olması kimi simvolizə edilir. Digər bir səhnədə isə yaşlı Cesus Feverin ölümündən öncə isti yay günündə üşüməsi və onun tələbi ilə bacanı yandırmaları və orada olan bütün quş yuvalarındakı quşların daha uçamağı öyrənməmiş ölmələri əsərdəki Coelin daha çox şeydən xəbərsiz uşaqkən Landing-ə gələrək sanki burada tələyə düşməsi kimi simvolizə edilir. [29]

Əsərdə insanların görünüşü baxımdan da heyvana bənzədilməsi hissəsi vardır ki, bunu da Zunu görən hər kəsin onun arıq və boynu çox uzun olduğu üçün onu zürafəyə bənzətmələrini misal göstərmək olar.

Müxtəlif həssas mövzulara toxunan əsər üzərində dəqiqliklə araşdırmalar aparılan zaman əsərdə fantastik mövzulardan da istifadə edildiyi görünür. Əsərin əvvəlində oxucular həm də Coel personajı üçün də fantastik kimi görünən hadisələrdən biri isə gəldiyi gün pəncərədə qəribə baxışlı bir qadını görməsi idi, çünki evdə kimdən soruşsa da heç kəs onun kim olduğunu, ümumən varlığını inkar edirdilər, ilk başda sanki ruhmuş kimi görünən qadının əslində qadın geyimi geyinən Randolf olduğu ortaya çıxaraq oxucular da bu müəmmalı qadının ruh deyil bir insan olduğunu anlayırlar. Daha sonra evə yeni gələn Coelin söhbət sırasında hardan gəldiyi məlum olmayan qırmızı bir topun otağa daxil olduğunu görür və Coeldən başqa heç kim gələn topa fikir vermir. Bu səhnə sanki fantastik və ürpədici hadisə imiş kimi

oxuculara təqdim olunur, lakin əsərin irəliləyən hissələrində atası ilə yeni tanış olan Coel onun yataq xəstəsi olduğunu anlayan zaman sadəcə əlini tərpədə bildiyini və əlində qırmızı topu atdığını görür və buradan da belə bir nəticəyə gəlmək olar ki, Coel evdəkilərlə söhbət etdiyi zaman o top mütləq ki atası Edvardın əlində oynatdığı toplardan biri imiş. Bundan başqa əsərdə Cloud Hotelin niyə xarabaxanaya qaldığını izah edən zaman oteldə baş verən ürpədici hekayələrdən danışırlar. Bu otelin hekayəsində onun ətrafında olan gölün əslində lənətli olduğunu və bir zamanlar həmin göldə Coel yaşında bir oğlan meşədə olan ağacların birindən iki- üç metr yüksəklikdən gölə tullanıb və həmin zaman başı göldə ağac kötüklərinə ilişərək boğulub, bu dəhşətli hadisədən sonra yenə həmin göldə qanunlarla problemləri olan bir qumarbaz gölə girib bir daha geri qayıtmayıb. Bu tükürpədici hadisələrdən sonra göldə qayıqla gəzən cütlüyü göldə barmaqları yaqutlarla dolu birinin onların qayıqlarını batırmaq istədiyini söyləmiş, daha sonra başlaqarı da eyni buna bənzər şeylər yəni göldə boğulan həmin o uşaqla, qumarbazı gördüklərini hətta saçları bir birinə dolanmış uzun, yaşıl rəngdə olduqlarını da demişlər. Birisi göldə olarkən iki əl onun ayaqlarını tutub gölə dartmaq istədiyini demişdir. Bu hekayələrə hər kəsin inanması isə göldən geri qayıtmayan qumarbazın əlində hər zaman yaqutdan bir üzüyü olduğu həqiqəti idi. Bu qorxulu söz-söhbətlərdən sonra otelə bir daha heç kim gəlməmiş və xarabaxanalığa çevrilmişdir, həmçinin, otelin ətrafında olan gölə isə Boğangöl adını vermiş və heç kəs oraya getmədiyi üçün gölün ətrafı otlarla bürünmüş, suyu qaralmış və daha ürküdücü hal almışdır. Romanda fantastik elementlərdən istifadə edərək oxuculara cinsi mövzulardan əlavə olaraq maraqlı hekayələr nəql edilmişdir.

Trumen Kapote “*Başqa səslər, Başqa Otaqlar*” (“ *Other Voices, Other Rooms*” ) əsərinin adının mənasını isə bu cür simvolizə edilir ki, əsərin əsas personajı olan Coel öz kimliyini və təsəvvüründə yaratdığı ata fiqurunu tapmağa çalışarkən gəldiyi tanımadığı insanların arasında başqa, ona yad olan evdə, otaqda qalaraq, yeni yaşam tərzi ilə qarşılaraq həyatın gerçəklikləri ilə üzləşir və bu yolda çox insanlar, başqa səslər ona çox sözlər demişdir və deməyə də davam edəcəkdi. Bütün bu çətinliklərə baxmayaraq əsərin sonunda Coel hər kəsi dinlədikdən və şahidi olduğu bəzi

hadisələrdən sonra son olaraq öz qərarını verərək, öz kimliyini qəbul edərək hər zaman başqa səslər eşidəcəyini və başqa otaqlarda qalacağını bilərək öz taleyini qəbul etmişdir. Yazıçı oxuculara həyatda hər zaman, başlanğıcdan sona qədər başqalarının danışacağını, hər zaman tənqid edəcələrini, başqa səslərin hər zaman var olacağını, başqa məkanlarda, başqa otaqlarda, tanımadığımız mühitdə olacağımız gerçəyini və sadəcə onların var olduğunu qəbul edib, həyatlarını öz istədikləri kimi yaşamalı olduqlarınl və heç kimin sözünə görə özünü dəyişdirməməli, özünə qapanmamalı olduğu fikrini tam olaraq izah etmək istəyirdi.

1995-ci ildə "*Other Voices, Other Rooms*" romanından ilhamlanaraq eyni adlı film çəkilmişdir. Filmin direktoru David Rocksavage olmuş və film zamanında 12 sertifikat qazanmışdır. Film başlayarkən mövzunun 1930-cu illərdəki ata axtarışında olan cavan bir oğlanın təsviri ilə açılır və dövrün tanınmış aktyor və aktrisalarının təşkili ilə eyni ilə romanda təsvir olunan hadisələri ekrana gətirməyə çalışmışlar. Lakin filmlə bağlı çox məlumat olmasa da, izləyənlərin təsüratından filmin romanın özünə nisbətən daha zəif görünməsini və romanın filmdən daha çox emosiyaları bəlli etməsini və İngilis aksenti ilə Cənub Qotik orjinal aksentin fərqləndiyini bildirmişlər.

"*Başqa Səslər, Başqa Otaqlar*" romanı oxucularda bəzən çaşqınlar yaratsa da, daha dərindən anladıqdan sonra əsərin çox gözəl mətnaltı mənalarla insanlara çox şey öyrədən gözəl və mistik bir romadır. Trumen Kapotenin yazı üslubu və dil bəstəkarlığı ilə mahir bir yazıçıdır ki, hər bir sözü yerində yazan və fikrini ifadə edir və yazıçını digər yazıçılarda çatışmayan bir xüsusiyyətinə görə də fərqləndimək olar. Bu fərq isə oxucuların tamamilə yazılmış mətnə diqqətini cəlb etməklə böyük bir naliyyətldə etmişdir. Oxucunun əsəri oxuyarkən baş verən hadisələr qarşısında itib batması müəllifin bacarığından xəbər verir.

Romanın yazılmasında istifadə olunan digər naliyyət isə yanlız başına qalmış bir uşağın ətrafdakı dünyanı necə yaratmalı olduğunu və bu dünyada necə və hansı formada yaşamalı olduğunu nə qədər dərinliklə, bütün hiss və duyğuların dəqiq təsviri ilə və aydın şəkildə təsvir olunmasıdır. Coelin sonda dünyanı özü dərk etməsi üçün öz qərarı ilə orda qalması və onun az yaşlı olmasını və yaşıdlarına nisbətən təcrübələrinin az olmasını nəzərə alaraq, Coel çox gözəl bir iş ortaya çıxarmış olur.

## 2.2. "*Başqa səslər, Başqa otaqlar*" əsərindəki personajların müxtəlifliyi

Trumen Kapotenin 1948-ci ildə nəşr etdirdiyi və bir çox tənqidçilər tərəfindən bu əsər üçün çox tənqid olunan yazıçının "*Başqa Səslər, Başqa Otaqlar*" ( "*Other Voices, Other Rooms*" ) əsəri həm şöhrət gətirmiş həm də mövzusunun o zamanlar aktual olan mövzulardan kənar, cəmiyyətin qarşı çıxdığı mövzudan yazıldığı üçün tənqidi münasibətlər görmüşdür. Cənub qotik üslubundan da istifadə edilmiş əsərdə gənc oğlanın xəyalında yaratdığı ata obrazı ilə anası öldükdən sonra tanış olacağını düşünərək New Orleansdan Noon City'ə gəlməsi və burada öz cinsi kimliyini tapmağa çalışması, gördüyü insanların, onların söhbətlərini dinləməsi manupilyasiyaya düşməsi və sairə kimi hadisələrdən ibarət özünəməxsus gözəlliyə malik bir əsərdir. Romanın əsas mövzusu olan ata axtarışı, kimliyini qəbul etmə, başqalarını anlama və başqalarından özümü kənarlaşdırma kimi mövzulardan məharətlə istifadə edilərək cəmiyyət arasında kəskin şəkildə tənqid, təhqir olunan və nifrətlə baxılan eyni cinsdən olanların bir-birinə qarşı olan sevgisindən bəhs edilir.

Əsərin əsas personajı Coel Knoks yeniyetməlik çağına yeni girmiş 13 yaşlı cavan, məsum üzlü, saf bir oğlandır və anasının ölümündən sonra bütün həyatı, yaşayış mühiti, ətrafındakı insanlar hamısı yeniləri ilə əvəz olunaraq dəyişir. Onu uşaqlıqdan heç görməyən atasının ona yazdığı məktubla yanında yaşamağını istəməsi və bu məktubun sayəsində Coel xəyalında düşündüyü ata tipinin tapmaq üçün bir yola çıxır, lakin bilmirdiki atası ilə bağlı bütün düşüncələri, xəyalları hamısı məhv olacaq. Əsərdə Coel fərqli insanlarla tanış olduqdan sonra nəhayət evdəkilərlə də tanış olur, lakin tam olaraq tanışlıq demək olmazdı. Hər biri fərqli insanlar idi, bəzisi yaxın bəzisi özünü çox sərt kimi göstərirdi. Coelin də əsərdə dürüst biri kimi təqdim etsək doğru olmazdı, çünki o, özündən hekayələr danışmağı sevən biri idi və bu bacarığından istifadə edərək yenicə tanış olduğu Zuya anası və özünün qar və çovğuna düşdüklərini və bir qayalığa sığınaraq orada bir müddət qaldıqlarını hətta onları qurtarmağa gələndə artıq anasının öldüyünü demişdir. Təbii ki, Zu onun yalan dediyini həmin an anlamışdı, lakin onun dediklərində həqiqət olan bir qismi var idiki, Cesus Fever ölən zaman çox soyuqdu deyəndə Coel anasına da hər zaman soyuq

olduğunu dilə gətirmişdir. Buradan belə nəticəyə gəlmək olarki gerçəklər çox ağır gəldiyi üçün daha asan bir hekayə ilə o, anasının ölümü ilə bağlı acılarını gizlətməyə çalışırdı. Bundan əlavə onun gerçəkliyi gizləyərək əvəzinə öz düşüncəsindəki uydurma hekayə danışdığı, digər bir an isə dostu Semiyə yazdığı məktubda görmək mümkündür. O, atası ilə bağlı yalan deyərək, onun daha gənc göründüyünü, onunla gözəl vaxt keçirdilərini və kuzen Randofla birlikdə içki içdilərini də özündən uyduraraq demişdir. Bütün uydurma hekayələr Coelin təxəyüllündəki gerçəklikdən qaçaraq sığındığı yalan hekayələr idi. Bəlkə də gerçəklikdən qaçaraq uydurma hekayələrə sığınan Coel həqiqəti qəbullanmadığından və hekayələr isə arzuladığı yaşam tərzinin sanki həqiqətmiş kimi danışması onun hələ də həqiqəti və kimliyini, hara aid olduğunu qəbullanmaq istəmədiyindən idi. Qəribə insanlar, qəribə mühit, yaşamaq istəmədiyi və qaçmaq istədiyi bir evdə yaşayan Coel təxəyüllü ilə gerçəklikdən uzaqlaşaraq bir növ həyatda qalmağa çalışırdı.

Coel ilə tanış olduğu yeni ailəsi tam olaraq bir-birlərinə alışa bilmədilər və qismən anladığı, hörmət etdiyi və hər bir sözünə diqqətlə qulaq asdığı adam Ranfolf idi. Randolf və Coelin əsərdəki qarşılıqlı münasibətlərini tam olaraq müəyyənləşdirmək biraz çətindir çünki Randolf və Coel arasında dostluq münasibəti və Coel üçün daha artıq hisslər var idi. Randolf Edvard personajının əvəzi olaraq ata fiquru ilə hərəkətləri üst-üstə düşmürdü. Coelin mənlik axtarışına, şəxsi və cinsi kimliyini kəşf etməsində danışdığı və məsləhət verdiyi hekayələri ilə köməkçi rolunu oynamışdır. Lakin Coel üçün yad gələn və alışa bilmədiyi insanların yanından getmək üçün İdabellə qaçmasına onun yaşında və həyatı tamamilə dəyişən biri üçün gözlənilən hadisə idi. Qaçdıqları zaman qarşılaşdığı qadının Coeldən xoşu gəlməsi və ona hətta yaşayış üçün ev belə təklif etməsinə baxmayaraq, Coel geriyə qayıtmağı üstün tutaraq tanımadığı qəribə insanla yaşamaqdansa tanıdığı qəribə insanlarla yaşamağı daha üstün tutdu. Əsərin sonunda Coel personajı öz yeni həyatını və cinsi kimliyini qəbul edərək, Landing'də qalmağı qərar almışdır. Beləliklə öz həyatında kişiyə daha az oxşamağı ilə bağlı narahatçılıq çəkən Coel İdabelin kişiyə bənzər hərəkətləri onun diqqətini çəkmiş və daha yaxın dost olmuş, lakin sonda uşaqlığını bir kənara qoyaraq qadın paltarı geyinən Randolfun yolunun davamı ilə getməyi seçmişdir

"*Başqa səslər, Başqa otaqlar*" Coelin həyatındaki çətin dönəmlərdən bəhs edərək, bütün həyatındakı çətinliklər ilə mübarizə apararaq, düşmənlərini tanıyaraq, taleyini və cinsi kimliyini qəbul edərək, hər çətinliyin bir sonu olduğunu və başqa səsləri, insanları dinləmədən öz həyatını yaşamağını vacibliyindən bəhs edir.

Romanın digər mərkəzində çıxış edən personajlarından biri və hər zaman durğun xarakteri ilə tanınan kuzen Randolf olmuşdur. Randolf 30 yaşlarında, özünü hər kəsdən uzaqlaşdırmış, ölümü gözləməkdən başqa heç bir iş görməyə enerjisi olmayan, tənəzzülə uğramış, gecə ilə gündüzü bir-birinə qarışdıran və hər zaman içki, siqaret əlindən əskik olmayan, lakin bütün bunlara baxmayaraq fiziki olaraq qrotesk böyümüş bir uşaq olaraq təsvir edilir. Uşaq kimi təsvir edildiyini onun geyindiyi daha doğrusu maskalandığı ruha bənzər, heç kəsin tanımadığı qadın paltarı geyinməsi və lələklərdən qutu üzərində quş düzəltməsindən çətin də olsa onun xarakterinin dərinliklərində hələ də uşaq olaraq qaldığını demək olar. Bu uşaqlıq isə onun başqalarına olan münasibətinə də təsir etmiş və Emi ilə kuzen olsalar belə bəzən aralarındakı münasibət ana və oğul münasibətinə yaxın olur, lakin hər zaman Randolf Emiyə nə edəcəyini və etməyəcəyini deyərək oxuculara onun sözünün evdə daha üstün olduğu göstərilir. Landing-də hər şeyin cavabdehi Randolf idi, buna baxmayaraq, bəzi mövzularda o çox gücsüz görünürdü. Əsərdə Coelin ata obrazı üçün olan axtarışına Randolfun uyğun gəlmədiyini, əksinə Coel ilə aralarındakı münasibət daha çox dostluq və ondan artıq görünürdü. O, Coel üçün ondan asılı olacağı bir həyat quraraq, emosional bağlardan istifadə edərək Coeli manipulyasiya etmişdir. Randolf evdə hər kəsdən çox Coellə söhbət edən və özünü Coelə sevdirə bilən personajlardan biridir. Oxucular Randolfun necə göründüyünün təsvirini Coelin ilk dəfə onu gördükdə düşündüyü fikirdən yəni onun necə qadına bənzər tüksüz olması, dərisinin necə hamar olması, saçlarının gözəl buruq formasında olması, gözlərinin səma mavisi rəngdə olması kimi təsvirlərdən artıq Randolfun necə biri olduğunun təsəvvürlərdində yarada bilirdilər. Randolf ilə Coeli cinsi kimliklərini axtarmaqları və bu yolda keçdikləri çətinliklər baxımından uyğunlaşdıra bilərik. Əsərin irəliləyən hissələrində Randolfun danışdığı özü ilə bağlı keçmiş hekayəsində əslində onun bir qadınla sevgili olduğu, lakin sonradan Pepi adlanan personajı

gördükdən sonra özündə olan hətta özündən belə gizləməyə çalışdığı dəyişikləri görərək bir oğlana aşiq olduğunu öyrənir. Lakin əsərdə Randolf sevgilisi və aşiq olduğu oğlan tərəfindən xəyanətə uğrayır və onlar birlikdə qaçaraq Randolfu geridə qoyurlar. Romanın bu hissəsinə diqqət etsək Randolfun gizləməyə çalışdığı, lakin bir oğlana aşiq olduqdan sonra daha da gizləyə bilmədiyi cinsi kimliyi bir növ cəmiyyətin basqısı tərəfindən ört-basdır edilərək gizləməyə çalışdığını müəyyənləşdirə bilərik. Cəmiyyətin eyni cinslilərin sevgisinə qarşı olan nifətini isə Pepinin Randolfun ona qarşı hissləri olduğunu bildikdən sonra onu təhqir etməsi, alçaltmasını da görə bilərik və bütün bunlara baxmayaraq, Randolf Pepinin getdikdən sonra onun məktublarını oxumayacağını bilə-bilə yenə də ona məktub yazıb göndərməsi sevginin qarşılıq gözləmədən necə sevilməsinin nümunəsi kimi göstərilmişdir.

Əsərin əvvəlində Coelin atası adından Coelə məktubun yazılması və atasının nəyinki məktub yazmaq, heç danışmaq qabiliyyətinin belə olmamasını öyrəndikdən sonra, bütün düşüncələr Randolfun bu məktubu yazıb göndərdiyi və sonra bəzi mövzularda Coeli manipuyasiya etdiyini və onun kimiliyini müəyyən etmə mövzusunda Randolfun təsiri olduğu düşünülmüşdür. Randolf da Coel kimi kimliyini müəyyən etmək prosseslərindən keçərək, bəzi pis hadisələr yaşamış və bundan sonra qaranlıq dünyasında sadəcə içki və tənhalıqla yetinmiş və Coel gəldikdən sonra az da olsa balaca dünyasında dəyişiklər olmuşdur. Qadın kimi görünmək istəsə belə cəmiyyət və dövrün insanlarının düşüncəsi nəticəsində Randolf sadəcə gizli şəkildə qadın paltarı geyinib heç kəsin tanımadığı biri və ruh olaraq düşünülən bir qadın obrazı yaradır. Bütün bunlara baxmayaraq nəhayət sonda Randolf Coelə öz gizli kimliyini göstərmək istəyərək, bir növ indiyə qədər hər kəsdən gizli tutduğu kimliyini artıq qorxmadan, azad şəkildə nümayiş etdirmək istəmişdi və bu da cəmiyyətin səbəb olduğu başqa bir problem və həyatların necə sıxışdırılmasını simvolizə edir.

Əsərin digər personajlarından biri İdabel Tompkins gənc, cəmiyyətin təxəyyülündə olan qız fiqurunun tamamən əksi bir qız idi. Oğlan kimi hərəkətləri, hər kəsə qarşı kobud danışıq tərzi və hərəkətləri hər kəsin hətta ailəsinin belə ondan xoşu gəlmirdi. Bacısı hər zaman ətrafda olan hər kəs kimi onun haqqında yaxşı sözlər demir və

İdabelin sevimli iti, həmçinin tək dostu Henrinin yaşlı olduğu üçün öldürülməsini istəyirdi və bu söhbətə görə sonda İdabel bacısnı çox pis döyərək hətta burnunu qıraraq evdən qaçmışdır. İdabeli ilk dəfə görən Coelin ilk təsəvvürü belə olmuşdur:

" *It was a girl with fiery dutchboy hair. She was about his height, and wore a pair of brown shorts and a yellow polo shirt. She was prancing back and forth in front of the tall, curious old house, thumbing her nose at the barber and twisting her face into evil shapes.*" [15, s.2].

( Oğlan kimi alovlu saçlı bir qız idi. O təxminən onun boyu qədər idi və bir cüt qəhvəyi şort və sarı polo köynək geyinmişdi. O, hündür, köhnə evin qarşısında irəli geri hərəkət edir, bərbərdə barmağı il burnuna toxunaraq, üzünü qəribə formalara salır.) ( L.Ə)

İdabelin fərqli geyinməyi rahatlıq üçün deyil sadəcə oğlan və qız arasında qoyulan bariyerin aradan qaldırılması istədiyi üçün və cəmiyyətin qızlara nisbətən oğlanlara daha azadlıq verməsi onun belə davranmasının əsas səbəblərindən biri idi və buna görə çox tənqid olunmuş, hətta bəzi yerlərə gedərkən qız kimi geyinməsən içəri buraxmayacağıq kimi müxtəlif sözlər də deyilmişdi. İdabel personajı ilə həm oxşar həm də müəyyən cinsi cəhətdən bir-birinin tam əksi olan Coel bir müddət sonra yaxın dost olurlar və hər bir mövzuda danışıb söhbət edirdilər. Hər ikisi də həm yaşadıqları cəmiyyətdən, insanların düşüncələrindən həm də evdən narazı idilər. Lakin İdabelin digər xüsusiyəti hər zaman qəzəbli və zorakı olması idi və bu xüsusiyyətinə görə İdabel personajı ilə Karson Makkullersin "*Member of the Wedding*" əsərinin Franki və Skot personajlarının obrazlarını və oğlan kimi olaraq cəmiyyətin yaxşı baxmadığı qız tipinin əksi və kobud, zoraki hərəkətləri olan personajları eyniləşdirmək olar. Hər iki əsərdə bu personajlar qadın və kişi arasındakı sərhədi saymayaraq istədikləri kimi davranır, lazımi gəldikdə hətta bəzi şeyləri oğurlayırdılar, şiddət göstərirdilər və bu zorakı hərəkətlərinin səbəbi isə özünü müdafiə üsulu idi. İdabel personajının oğlan kimi qız olmaq yox əsil oğlan olmaq və həyatını həmin istəklər üzərinə yaşamaq istədiyini müşahidələr nəticəsində müəyyənləşdirmək olar. Hər zaman cinsi zorakılıq və digər həssas təhlükələrə qarşı özünü hazır etmiş və hətta Coel onu yanağından öpərkən həmin dəqiqə onunla mübahisə etməyə başlamışdır. İdabelin tam olaraq cinsi

kimliyini kəşf etdiyi an onun xanım Visterianı gördüyü an idi, belə ki, Coellə evdən qaçdıqdan sonra karnavala gəlirlər və orada balaca boy, karnavalda iştirak edək qadını görürlər və onların diqqətini ən əsas İdabelin diqqətini cəzb edir və onlar biraz söhbət etdikdən sonra İdabel xanım Visteriyanın hər hərəkət, danışığını diqqətlə izləyir və ona aşiq olduğunu anlayır. Lakin İdabelin xəyalındakı istəklərin tam əksi baş verir və xanım Visteriya Coelə daha çox yaxınlıq göstərir. Bununla da cinsi kimliyin önəm daşıdığı bir dövrdə İdabelin xəyalları məhv olur və sonradan ailəsi onu uzaq qohumlarının yanına göndərərk onu hər kəsdən uzaqlaşdırlar.

İdabel personajının simasında o dövr cinsi tənqidlərə məruz qalmış və cəmiyyət tərəfindən qəbul olunmadığı üçün bəzi istəklərini məcburi və zorakı yollarla heç kəsi dinləmədən həyata keçirməyə çalışmış, lakin ən sonunda öz istəkləri yox dövrün düşüncəsi ilə hərəkət edən ailəsinin istəyi üzrə onların məcburi hərəkətlərinin qurbanı olur və yaşamaq üçün başqa yerə göndərilmişdir.

Yazıçı əsərdə həmçinin İdabelin heç bir dostu olmadığı sadəcə Henri adlı yeganə dostu olan iti göstərərək bir növ anlaşılmadığı və onu anlayan birinin olmadığını düşündüyü və gördüyü üçün yalnız göstərilmişdir. Bu anlaşılmamazlığın səbəbi isə açıq şəkildə təsvir edilmiş və cəmiyyətin gördüyü normalardan kənara çıxaraq, azad şəkildə, istədiyi kimi bir həyat yaşamaq istəyən birinin necə tənhalaşması və heç kim tərəfindən qəbul edilməməsinin nəticəsi olaraq göstərilmişdir. Coellə bir çox oxşar cəhətləri olduğunu və ona güvənə biləcəyini düşüdüyü üçün sadəcə Coelin onun yaxın dostu olmasına və dərdlərini bölüşməklərinə icazə verərək özünə də bir növ şans vermişdir.

Trumen Kapotenin uşaqlıqdan yaxın dostu olmuş və sirrlərini bölüşüb güvəndiyi yaxın dostu Harper Li ilə İdabel obrazını uyğunlaşdırıb bir növ Harper Lini İdabel obrazında təsvir etmişdir. Bununla yanaşı Harper Linin də "*Bülbülü öldürmək" ("To Kill A Mockingbird" )* əsərində Trumen Kapoteni obrazlarının birində təsvir etmişdir.

İdabellə tanış olarkən onun əkiz bacısı Florabelə də diqqət yetirilir. Onlar əkiz bacı olmasına baxmayaraq tamamən fərqli dünyanın insanları və fərqli mənliklərin sahibi idilər. İdabel oğlan kimi geyinib özünə baxmasa da, sərt hərəkətlər etsə də ondan

tamam fərqli olaraq Florabel qız kimi libaslar geyinir, saçını hər dəfə yuyaraq fərqli görünüşlərlə səliqəyə salır. Florabelin bacısı olmasına baxmayaraq hər kəs kimi İdabelə qarşı pis rəftar etdiyi və ondan xoşu gəlmədiyini Coelə dediyi bu sözlərlə müəyyənləşdirmək olar:

"*We born twins, like I told you, but Mama says the Lord always sends something bad with the good*" [15, s.40].

( *Dediyim kimi biz əkiz olaraq dünyaya gəldik amma Ana dediyi kimi Tanrı hər zaman yaxşı ilə birgə pis də göndərir*) *(L.Ə)*

Bu sözlərdən də bəlli olduğu kimi Florabel özünü yaxşı və İdabeli pis olaraq nəzərdə tutur və daha diqqətlə müşahidə etsək bu sözləri ona anası demiş və burdan belə nəticəyə gəlmək olarki ailədə təkcə Florabel yox hər kəs İdabelə eyni mübasibət göstərirmiş və nəticədə İdabel heç kim tərəfindən anlaşılmadığı üçün tənhalaşmış və heç bir dostu olmamışdır.

Romanda bəzi insanlar kimi Florabelin simasında normal insanların da anormal və qəddar düşüncəyə sahib olduğunu göstərilir və onun qız kimi incə davranışları olmasına baxmayaraq bu onun eyni ilə xarakterinin də geyimi kimi incə olacağı anlamına gəlmir. Yazıçı bununla da əsərdə normal insanların qəddar və sərt ola biləcəyi və hər kəsin qəribə və pis baxdıqları insanların isə əslində yaxşı ola biləcəyi və bütün bu antonimliyin və özünə qapanmaların insan təxəyyülünün məhsulu olduğunu oxuculara nümayiş etdirməyə çalışmışdır.

Personajların müxtəlifliyini tədqiq edərkən əsərdə ögey ana obrazını canlandıran Emi diqqət çəkir, lakin Emi ögey analıq ümumən Coellə deyiləsi bir söz olmasa danışmazdı. Emi əsərdə əvvəldən etdiyi bəzi hərəkətlər, ilk dəfə Coellə tanış olan gün onun otağına girən quşu öldürməsi və sairə sərtliklərə görə qəddar biri kimi təsvir olsa da həqiqətdə o, qəddar yox zəif biridir. Eminin yoldaşı Edvardla heç bir münasibəti olmayıb sadəcə onunla Randolf tərəfindən güllə ilə vurulduqdan sonra evlənərək özünə yaşamaq üçün rahat bir ev tapmaq məqsədi ilə evlənib və demək olarki əsərdə sona qədər Randolf tərəfindən idarə olunmuşdur. Eminin personajının həyatı yalandan ibarət və xəyal dünyasında yaşayan zəif biri kimi təsvir olunmuşdur. Amerikada 1940-cı illər qadınların çox söz haqqı olmadığı, başqaları tərəfindən idarə

olunan və taleyi ilə barışıb yaşayan qadınlar ilə Emini paralel şəkildə müşahidə edib, Eminin o dövrün qadınlarının yaşadığı həyat tərzini simvolizə etdiyi qənayətinə gəlmək mümkündür. Trumen Kapote  Eminin timsalında Cənub qadınları və onların irqçi anlayışları arasında əlaqə qurmuşdur.

Amerikada irqçiliyin daha çox təsiri olduğu bir dövrdə T.Kapote Afrikan-Amerikan personajlar və onların həyat tərzi və problemlərini göstərərək, dövrün irqçilik məsələsinə toxunaraq, qaradərili insanların çəkdiyi əziyyətlərdən bəhs edərək, bütün Afrikan-Amerikan insanların səsi olmağa çalışmışdır.

Əsərdə Afrikan-Amerikan iki personajlar  Cesus Fever və onun nəvəsi Zu təsvir edilmişdir. Cesus Fever 90 yaşlı,  at arabası sürən və həyatı boyu Landing'də xidmət edən biri kimi təsvir olunmuş və əsər boyu ancaq yuxulayan və sonda ölümü göstərilən bir personajdır. Cesusun  yaşlı olması və öldüyü zaman yanında olması üçün onun nəvəsi Zu 13 il idi ki, Landing'ə gəlmiş və xidmətçi olaraq işləmiş və həyatında böyük dəyişikliklər olmuşdur. Zunun timsalında Afrikan-Amerikan qadınlarının necə başqalarının əmrləri əsasında yaşamasını və keçirdiyi həyat hadisələrini görmək mümkündür. Zunun düzgün adı Zu olmasına baxmayaraq rəsmi mürəciət olaraq Emi və Randolf ona Missuri deyə müraciət edərək romanda ev sahibləri ilə evdə xidmətçilik edən Zunun arasında ciddi münasibət olmasından xəbər verir. Lakin Coellə Zunun münasibəti əvvəldən yaxşı formada irəliləmiş və Coelin qayığısına qaldıqca onu övladı kimi sevməyə başlamışdı. Hətta evdən gedən zaman Coel üçün geri dönəcəyini və onu da özü ilə yaşamaq üçün aparacağına söz vermişdir. Zu evdən ayrılıb gedərkən onun getməsinə pis olan personajlardan biri məhz Coel idi çünki Coelin o evdə tək normal və çəkinmədən əlaqə saxladığı və dərdlərini bir-biri ilə bölüşdüyü adam idi və Zu getdikdən sonra Coel evdə tamamən tək və kimsəsiz qalacağını bilirdi.

Əsərdə diqqət çəkən hissələrdən biri isə Zunun hər zaman boynunda qırmızı parça olması idi. Bunun səbəbini Coelə Randolf danışmış və onun keçmiş həyat yoldaşının ona qarşı vəhşilik edərək Zunu öldürməyə çalışmasını və nəticədə boğazında böyük yara izinin qalmasını demişdir, burada yazıçı qadının zərif boynuna incə cəvahirat taxa biləcəyi halda onu yaralaması bir növ o dövr cəmiyyətinin və insanlığın incəlik

əvəzinə zorakılığa daha meyilli olduğunu vurğulamışdır. Bütün bu zorakılıqlara nəticəsində Zu hər zaman keçmiş yoldaşının qayıdıb onu öldürəcəyindən qorxaraq yaşamış və vəhşi heyvanlarla kişilərin eyni dərəcədə qaranlıq və təhlükəli varlıq olduğunu demişdir.

Əsərdə Zunun illərdir oradan çıxıb getmək və arzuladığı kimi yaşamaq istəməsi babası Cesus Fever öldükdən sonra mümkün kimi görünür və bütün əşyalarını toplayaraq tək və heç bir minikdən istifadə etməyərək illərdi xəyalında olduğu yeni yaşamına doğru gedir. Lakin əsərin sonuna doğru irəlilədikcə Zunun geri döndüyünü və əvvəlkindən daha sakit və hüzünlü olduğu görünür, Coel ondan nə olduğunu soruşduqdan sonra başına gələnləri öyrənir. Zu şimala doğru, arzu və xəyallara doğru gedən yolda olan biri qaradərili olmaqla üç kişi onu silahla hədələyərək təcavüz edirlər. Onlardan biri siqaretini Zunun üzərində söndürür və bu iz Zunun ömür boyu bu dəhşətli hadisənin pis xatirəsi olaraq onun üzərində qalacaqdı.

Əsərdə Zunun hekayəsi çox dəhşətli və təsirli olsa da romanda bu hadisələrə çox da diqqət göstərilməmişdir və bunu da həmin zamanda Zunun hekayəsinin gözlənilən bir hekayə kimi baxmışdırlar. Yazıçı Coelin Zunun yolda olan zoraki hekayəni danışan zaman ona qışqıraraq susmasını istəməsi əslində həmin dövr insanların bu cür hekayələrə necə qulaqlarını bağladığını və görməzdən gəlməyini bir növ təsdiq etmişdir. Trumen Kapote zorakılıq və şiddət mövzunu Afrikan-Amerikanların xüsusi ilə qadınların öz həyatlarını sərbəst yaşamasını hətta yolda belə təkbaşına səyahət etməsinin təhlükəli hal oldu olduğunu göstərməsi ilə Cənub cəmiyyətində irqçiliyin necə çətin və təhdit ediləsi halda olduğunu nümayiş etdirməyə çalışmışdır.

Romanda digər bir oxşarlıq Coellə Zunun hər ikisinin Landing’dən və oradakı sıxıcı, qaranlıq həyatdan getmək istəməsi, lakin oradan kənara çıxdıqda isə zorakılıq, cinsi mühakimə, qorxu və sairə kimi hadisələrin olacağını düşünərək evdə qalıb sıxıcı həyatlarına davammı etmək yoxsa bütün problemlərə qarşı gəlib oradan getmək mi arasındakı seçimdə qalaraq, çox çətinlik çəkdiklərini onların həyatlarındakı oxşarlıq kimi göstərmək olar.

Əsərdə fantastik elementlərlə zəngin hekayələrin danışıldığı tənha və qorxuducu yer olan Boğangöl gölünün ətrafındakı oteldə tək başına yaşayan Balaca Sanşayn

personajının müxtəlifliyini analiz etsək bir çox fərqli situasiyalara rast gəlmək mümküdür. Balaca Sanşayn oteldə kimsəsiz qalmadan öncə orada köməkçi işləmiş və qəribə hadisələr baş verdikdən sonra hər kəs oranı tərk etsə də, o, orada qalmışdır. Randolfla aralarında yaxın dostluq münasibətləri var idi və hər dəfə bir-biri ilə görüşəndə mütləq içki içirdilər. Balaca Sanşayn bəzi sehirli gücləri olduğunu demişdir, lakin sehirli gücləri olmasa belə çox yaxşı bu rolu oynayırdı və əsərdə Zu üçün onu pisliklərdən qorusun deyə cazibədarlıq duası hazırlayıb satırdı, hətta Coel üçün də birini hazırlayacağını demişdir. Əsərin sonunda Randolf və Coel xəbərsiz tərk edilmiş oteldə yaşayan Balaca Sanşaynın yanına getdikdə hazırlıqsız olduğundan onları bəzi qəzəbli baxışlarla təhlükləli yerlərin olduğu ilə bağlı xəbərdar etmişdir.

Romanın əvvəlindən sonuna qədər müxtəlif davranışlarına görə qəribə olan insanlar arasında ən qəribəsi kimi Balaca Sanşaynı göstərmək mümkündür. Onun şeytani güclərinin olmasına insanların inanması əslində onun özü üçün istənməyən qonaqların gəlməməsi üçün böyük bir fürsət idi. Trumen Kapote Balaca Sanşaymın cəmiyyətdən uzaqlaşması və tək başına yaşamasını bir növ oxuculara bu cür təcrid olunmanın qeyri-adi bir şey olmadığını və Randolfun bağlı yollarının böyüdülmüş versiyası kimi göstərmək istəmişdir. Əsərdə Balaca Sanşayn Cloud Hotellə bağlı danışılan ürpədici hekayələrə baxmayaraq, oteldən heç vaxt ayrılmamış və qırıq, tökük, toz-tor basmış oteldə tək başına yaşaması bir növ kimlərinsə danışdığı hekayələrə inanmayıb, qorxusuz və tək başına başının çarəsinə baxa biləcək bir personaj kimi simvolizə edilmişdir.

Əsərin digər öncə xəyali daha sonra fiziki qüsurlu formada göstərilən personajı Edvard Sansom yəni Coelin atası idi. Əsər başlayandan Edvardla xəyali formada yəni Coelə gələn məktubla onu doğulduğu zamandan tərk etmiş atası ilə tanış oluruq. Coel isə hər zaman atasını görmək və onunla tanış olub hər kəs kimi ata oğul münasibəti içində olmağı xəyal edirdi. Nəhayət təxəyyülündə qurduğu ata fiqurunu tamamlamaq üçün atasının onu öz evinə dəvət etməsi ilə atası ilə birgə yaşamağa gedir. Lakin oxucular da Coellə birgə əsərin irəliləyən hissələrində atasının harada, kim olduğunu bilmədi və Coel hər nə qədər evdəkilərə atası ilə bağlı suallar versə də heç kəs cavab vermirdi. Bir gün Coeli atası ilə tanış edəndə bütün xəyalları məhv olur, xəyalındakı

ata fiquru əvəzində ona baxan iki cüt gözdən başqa heçnə görmürdü, çünki Edvard yataq xəstəsi və fiziki cəhətdən əlindəki topu atmaqdan başqa heç bir hərəkət edə bilmirdi:

" *The eyes were a teary grey; they watched Joel with a kind of dumb glitter, and soon, as if to acknowledge him, they closed in a solemn double wink, and turned... so that he saw them only as pair of a head, a shaved head lying with invalid looseness on unsanitary pillows*." [15, s.112].

(Gözləri gözyaşardıcı boz idi; onlar donmuş bir parıltılı baxışla Coeli izlədilər, daha sonra, sanki onu tanıyırmış kimi gözlərini ciddiyətlə iki göz qırpımı ilə bağlayıb, yana çevirdi.. beləcə o, gözlərin başın bir parçası olduğunu, qeyri-təmiz yastıqlarda bir boşluqda uzanmış saçsız bir başın parçası olduğunu gördü.) (L.Ə)

Beləliklə, Edin sadəcə baxan bir cüt göz və əlindəki topları atan birindən başqa heç cür təsəvvür etmək olmurdu və o, öz bədənində dustaq kimi yaşayırdı. Sadəcə qırmızı topları ataraq evdəkilərin diqqətini çəkə bilirdi. Edvardın niyə və nə səbəbdən bu cür yataq xəstəsi olduğu ilk əvvəllər bilinmirdi və Coel ona ancaq yemək yeməsində və kitab oxuyaraq köməklik edirdi. Lakin, Randolf özü və öz şəxsi kimliyi, cinsiyyətini kəşf etdiyi zamanlardan danışan vaxt bir hekayənin içində onun atasından da söz açmışdır. Bir zamanlar atası ilə yaxın dost olduqlarını, lakin sonradan sevgilisi ilə qaçan aşiq olduğu oğlanın xəyanətindən əlində silahla səhv anlaşılma nətincəsində Edvardı arxadan güllə ilə vurmuş və nəticədə o, yataq xəstəsi halına düşmüş və demək olarki ruhdan bir fərqi olmamışdır.

"*Başqa Səslər, Başqa Otaqlar*" (" *Other Voices, Other Rooms* ") əsəri mükəmməliyinə baxmayaraq içərisi ancaq qəzəb, səs və gözəlliyin təsviri verilərək tam olaraq bir xarakteristikası olmadığından Edgar Alan Poe "*Ulalume*" əsərinə bənzədilmişdir. Personajlar nə qədər canlı olsa da, hekayədə dərinlik, işıq yoxdur sadəcə səthi xüsusiyyətləri işıqlandıran işıqda olan qroteskləerdir. [30].

Kitabdakı əsas söhbət gedilən personajların hamısı cəmiyyət tərəfindən kənarlaşdırılıb və yaxud da həm öz daxili hisslərində, həm də onlardan asılı olmayan vəziyyətlər nəticəsində kənardadırlar. Hər bir personajın keçirdiyi yanlızlığı, sərbəst yaşamaq istəyərkən cəmiyyətin və başqa tanış insanların danışığı və müdaxiləsi

nəticəsində özlərinə qapanmaqları və bu vəziyyətdə işıqlı yol axtarmaqları və bəzilərinin işıqlı yolu tapması, bəzilərinin isə uğursuz nəticələnməsi ilə təsvir edilmişdir. Personajların daxili aləminə endikcə hər birinin bir-birindən fərqli daxili aləmi və müxtəlifliyinin olmasını və bu müxtəlifliyin nəticəsində dövrün təsiri ilə cəmiyyət arasında keçdirdikləri çətinlikləri və problemləri görmək və müşahidə etmək mümkündür. Həmçinin heteroseksuallığı müdafiə edən sosial cəmiyyətin içində homoseksual olmağı qəbul etmək və qəbul etdikdən sonrakı halda olan çətinlikləri nümayiş etdirərək cəmiyyətin inandığı fəlsəfədən kənara çıxanlara necə rəftar ediliyini və həmin insanların hansı çətinliklərdən keçdiklərini göstərərək bir növ oxucuları həmin dövrün cəmiyyəti ilə bağlı bilgiləndirmişdir.

# NƏTİCƏ

XX əsr Amerika ədəbiyyatının əsas yazıçılarından biri Trumen Kapote hesab olunur. Yaradıcılığının özünəməxsusluğu ilə seçilərək digər yazıçılardan açıq fikirliliyinə görə daha önə çıxır. Amerika ədəbiyyatına daha çox dünya ədəbiyyatına tanınmasında Cənub ştatlarının böyük müvəffəqiyyətləri olmuşdur. Cənub qotik sentimentalizminin nümayəndəsi olan yazıçı qotika ilə birgə cənubda olan məsələlərlə, cənub ştatlarının problemləri ilə bağlı mövzulardan əsərlərində istifadə etmişdir.

Qotika üslubundan istifadə olunmuş əsərlərdən də bəlli olduğu kimi qotika üslubu yaxşı nəticə əldə etməyən, qorxulu və sarsıdıcı hadisələrin təsviri ilə yanaşı dünyanın daha da pisləşməsinin təsviri, cəmiyyəyin insan psixologiyasına sarsıdıcı şəkildə təsirinin təsviri və qəddar, vəhşi obrazların təsviri əsas önə çıxarılır. Bütün bu səbəblər nəticəsində isə insanlığın yaxşıya doğru irəliləməsi əvəzinə daha da pisləşərək bəziləri qatilə çevrilir, bəziləri isə özlərini ətraf aləmdən təcrid edərək tənhalaşırlar.

Trumen Kapotenin yaradıcılığında cəmiyyətin və yaşadığı dövr insanların üzləşdiyi çətinliklərin təcəssümünü görmək mümkündür. Bu səbəbdən müəllifin əsərlərinə diqqət yetirdikdə irqçilik, zorakılıq, cinayət və cinsi ayrıseçkilik dəqiq şəkildə təsvir olunduğu aydın şəkildə görünür. Yazıçının yaradıcılarından biri olmuş Yeni jurnalistika adlı janr sayəsində jurnalistik qabiliyyətlərdən istifadə edərək Amerika mədəniyyət və cəmiyyətinin yaşadığı çətinlikləri, problemləri və real hadisələri dəqiqliklə araşdıraraq dövrün acı həqiqətlərini əsərlərində görmək mümkündür. Cinayətin dərin təhlili və cinayəti törətmə səbəbinin altında yatan psixoloji travmaların açıq şəkildə təsvir olunduğu real həyat hadisəsindən mənbə götürmüş "*Soyuq Qan*" əsərinin təhlilini görmək mümkündür. Roman digər ənənəvi təhkiyə üslubundan fərqlənərək, əsərdə səbəbsiz yerə qurban olanların həyatından bəhs etməklə kifayətlənməmiş, qətli törədən cinayətkarların da həyatlarından bəhs edərək, həqiq həyat hadisəsinə hər iki tərəfin gözü ilə baxaraq, təhlil edərək möhtəşəm şəkildə cinayəti və səbəblərinin izahını vermişdir. Əsərdə təhtəlşüurda yatan uşaqlıq

travmalarının insanlara necə təsir etdiyini və nəticədə könüllü və məcburi olmasından asılı olmayaraq zorakı və qatil birinə çevrilməsinin, həmçinin məsum insanların səbəbsiz və günahsız yerə öldürülməsinin təsviri verilmişdir. Müəllif jurnalist qabiliyyətindən istifadə edərək həyat hadisəsini bütün dəqiqliyinə qədər araşdırmış və hər iki cinayətkarın uşaqlıq dövr çətinliklərinin açılışını verərək onların sonda biraz da olsa peşmançılıq hisslərinin təsvirini ilə bir növ paralel yaratmışdır. Real həyatdakı qatilləri eyni ilə "*Soyuq Qan*" romanında təsvir edən Trumen Kapote qətli törədən Perri ilə Dikin əslində necə bir-birindən fərqli olduqlarını və Perrinin keçmiş həyat hekayəsini də göstərərək, onun necə həssas biri olduğunu və uşaqlıqdan aldığı travmaların onun indiki vəziyyətə gətirib çıxardığını oxuculara anlatmağa çalışmış və Perriyə qarşı simpatiya yaratmağa çalışmışdır. Digər cinayətkar Dikin isə Perri qədər peşmançılıq hissi keçirmədiyi də qeyd edilmişdir. Lakin sonda cinayətkatlara verilən edam hökmü ilə cəmiyyətdə olan qəddarlığın azalması ümidi ilə hər törədilən hadisənin gec-tez cəzasını çəkəcəyini psixoloji cəhətdən təsvir edilmişdir.

Müəllifin "*Başqa səslər, Başqa otaqlar*" əsəri cəmiyyətin və həmin dövr insanlığın necə daha da aşağı qatlara sürünməsindən, mənlik və cinsi kimlik axtarışında olan insanların cəmiyyətin qanunlarına zidd olması səbəbi ilə özlərini insanlardan uzaqlaşdırma, yanlızlıq, depressiya kimi mövzulardan bəhs edilmişdir. T. Kapote əsərdə qotika və sentimentalizmi birləşdirir. Nəticə personajlara rəğbət doğuran və hər cür sevginin qiymətləndirilməsini təklif edən hibrid qotik sentimentalizmdir. "Cənub qotikası" etiketi çox təsadüfi istifadə olunub və bu yanaşma romanın sentimental elementlərini gizlədir. Personajlar yanlız qəribə və qrotesk kimi təsvir olunmur, həmçinin simpatik və acınacaqlı göstərilmişdir. Əsərdə rolun dəyişdirilməsi, gender müəyyənliyi və sərt təzadlı cənub ideallarına qarşı cinsəllik və sevgi ilə bağlı olan riskin izahıdır. Əsər T.Kapotenin öz gəncliyini inkişaf etdirməsində, günahsız və özünü kəşf edən Coel obrazında katarsis rolunu oynayır, o, həqiqətən kitabın mesajını daşıyan səs olan Randolf personajında öz qoca, azad şəxsiyyətinə çevrilir. Coel və İdabel personajlarının obrazında cəmiyyətin normal olaraq gördükləri qız və oğlan fiqurunun görünüşünün fərqli formada verilməsi və nəticədə cəmiyyətin qeyri-normal baxdığı görünüş, fikirlərlə

toqquşmasının və bu çətin vəziyyətdən çıxış yolunun, özünü qəbullanmanın aydın təsviri verilmişdir. Əsərin sonunda Coel öz seçimini edərək cinsi kimliyini qəbul etmiş və harada yaşayacağının qərarını özü vermişdir.

Ətrafdakı insanlardan özünü uzaqlaşdırma, yanlızlıq, tənhalıq Trumen Kapotenin personajlarının əsas nümayiş etdirdiyi hisslərdir və bu hisslərin səbəbi isə açıq şəkidə nümayiş etdirilmiş, cəmiyyət və onların düşüncəsi bəzi normala uyğun olmayan insanların, eynicinsli şəxslərin bir-birinə qarşı olan sevgi və diqqətini qəbul etməyən, onları mühakimə edənlər nəticəsində personajların tənha və hər kəsdən uzaqlaşmasına səbəb olmuşdur. Yazıçı bu problemlərin aradan qalxması üçün personajların dilindən danışaraq öz fikirlərindən istifadə edərək, oxuculara özünün düşüncələrini çatdırmağa çalışmışdır.

"*Başqa Səslər, Başqa Otaqlar*" romanında hər personajın şəxsi və psixoloji aləmini açıq və aydın şəkildə tədqiq edilərək, başlarından keçən hadisələri, cəmiyyət tərəfindən necə qarşılandıqlarını, düşüncə tərzlərini və kimlik axtarışında olarkən başlarından keçən bütün çətinlikləri və öz kimliyini qəbul etmə kimi məsələlər ayrıca tədqiq edilərək göstərilmişdir. Hər zaman əsərlərində qaranlıq motivlər, dərin tənhalıq, özgələşmə kimi problemlərdən istifadə edən yazıçı başqalarından fərqli olaraq sonda hər zaman bir ümid olduğunu da demədən keçmir və oxuculara hər nə qədər qaranlıq yollardan keçsələr də sonda bir ümid işığının onları gözlədiyini bildirmişdir.

Trumen Kapotenin əsərlərini analiz etdikcə içində yazarın özü və uşaqlıq illəri, uşaqlıq dostları, yaşadığı bəzi məkanlar və başından keçən hadisələrdən əsərlərinin bəzi hisslərdə istifadə etdiyinin şahidi olunmuşdur. Yazıçının uşaqlıq illəri xoşbəxt keçməmiş, ata yoxluğu çəkmiş, ailəsindən uzaq böyümüş və müxtəlif məktəb və məkan dəyişmiş daha sonra isə gənc yaşında yazıçılığa başlayaraq tanınmış və həyat hadisələrindən biraz söz açmışdır. Hətta "*Başqa Səslər, Başqa Otaqlar*" əsərində Coel personajının başından keçən hadisələr müəllifin gəncliyi ilə birə-bir oxşar şəkildə təsvir edilmiş, hətta demək olarki bəzi nüansları saymasaq eyni həyat çətinlikləti ilə üzləşmiş və cinsi kimlik axtarışında olması, cəmiyyət tərəfindən çətinliklərə məruz qalması da diqqətdən kənar qalmamışdır.

Trumen Kapote əsərlərində hər zaman çoxlarından fərqlənən düşüncə tərzini nümayiş etdirərək, eynicinsli insanların bir-birinə olan qayğı və sevgisinin tərəfdarı olduğunu hətta özünün də elə bir insan olduğunu bildirərək, cəmiyyətin qəbul etmədiyi və daha çox təhqir etdiyi şəxslərin tərəfində duraraq, onlarla və yaşadıqları, üzləşdikləri çətinliklərlə bağlı əsərlər yazaraq oxucuları maarifləndirməyə çalışmışdır.

## İSTİFAFƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


Azərbaycan dilində:

1. Ağayev Zeydulla. Azərbaycan Amerika ədəbi əlaqələri, dissertasiyası- Bakı 1996, 329s
2. Kapote Truman. “Tiffanidə səhər yeməyi” Qanun Nəşriyyat. 2014, 152s
3. Sabitova A. Abş- Cənub Ştatlarının ədəbiyyatı. Mütərcim. Bakı, 2005. 53s
4. Şıxlı İ. XX əsr xarici ədəbiyyat tarixi.Maarif. Bakı, 1974. 254s

Rus dilində:

5. Капоте Т.Голоса траы: Повесть. Москва: художественная литература, 1951, 278с
6. Литература США XX века ( опыт типологического исследидования). Москва: Наука, 1978, 173с.
7. Мулярчик А. С. Американский роман: Ответы на вызовы XX века, США : ЭПИ. 1996, 74с
8. Староверова Е.В Американская литература. Саратов: Лицей, 2005, 319с
9. Старцев А.Горькая судьба Ф.С Фицджеральда // Иностранная литература, 1975, 172-180с

İngilis dilində:

10. American Literary Criticism. An Anthology. M: Progress Publishers, 1981, 398p
11. Bateson F.W and T.Meserole. A Guide to English and American Literature. New York, 1967, 334p.
12. Capote, Truman. Literary Elements Present in Miriam. Blogspot. Retireved 26 Feburary 2013
13. Capote Truman. In Cold Blood. Random House. 1966, 664p
14. Capote Truman. Breakfast at Tiffany’s and Three Stories. Reprint Edition. 1993

15. Capote Truman. Other Voices, Other Rooms. Vintage; 1st.edition. 1994, 208p
16. Capote, Truman. Breakfast at Tiffany's. Kindle Edition. 2012, 179p
17. Capote Truman. The Complete Stories of Truman Capote. Reprinted edition. 2012, 322p
18. Capote Truman. The Grass Harp. Vintage; Reprinted edition. 2012, 247p
19. Capote Truman. A Christmas Memory. Reissue edition. 2012, 122p
20. Clarke Gerald. Capote: A Biography (1998). Simon-Schuster. 2010. 656p
21. George Plimton. Truman Capote biography. Reprint Edition. 1998

Türk dilində:

22. Truman Capote. Başka sesler Başka odalar. Random House İnc. 2007. 206s

İnternet saytları:

23. https://www.britannica.com/biography/Truman-Capote
24. https://www.bibliography.com/people/truman-capote-9237547
25. https://www.encyclopediaofalabama.org
26. https://www.gradesaver.com/auther/truman-capote
27. https://literaryfictions.com/fiction-1/miriam-by-truman-capote/
28. https://works.doklad.ru/view/I7PH7-a4A-g.html
29. https://www.shmoop.com/study-guides/literature/other-voices-rooms
30. https://www.nytimes.com/books/97/12/28/home/capote-interview.html?r=1
31. https://www.archive.nytimes.com/books/97/12/28/home/capote-voices.html
32. https://www.en.wikipeida.org/wiki/Local_Color_(book)
33. https://www.supersummary.com/the-grass-harp/summary/
34. https://www.thedissolve.com/reviews/1121-the-innocents/
35. https://www.sparknotes.com/lit/incoldblood/summary/
36. https://www.chinhnghia.com/1836.pdf
37. https://www.hal.archives-ouvertes.fr/hal-02964279/document

38. https://jm919846758.files.wordpress.com/2019/09/understanding-truman-capote.pdf
39. www.mlook.mobi/files/month_1203/1e0486266a5506f4ee732542ed2b061bcdd91974.pdf
40. www.gradesaver.com/in-cold-blood/study-guide/character-list